# QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 137 (6337) 5 avqust 2021-ci il Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## YAP-a birləşən siyasi partiyaların bir qrup nümayəndəsinə üzvlük vəsiqələrinin təqdim olunması mərasimi keçirilib



Avqustun 4-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın VII Qurultayında YAP-a birləşən siyasi partiyaların bir qrup...

Bax 3

## Millət ilə onun vəkili arasında qütbləşmə yaradanlar KİMDİR?



Son günlər gündəmdə olan məsələ Eldəniz Səlimovun polis işçisinə xəsarət yetirməsi və bu səbəbdən deputatın toxunulmazlığına xitam verilərək həbs...

Bax 5

## Meşə yanğınları ekologiyanın məhvinə səbəb olur



Meşə yanğınları əsasən müxtəlif kortəbii hadisələrlə yayılan yanğına deyilir. Meşə ən çox əhalinin bu mövzuya səhlənkar yanaşması və şiddətli istilər səbəbi ilə baş verir. Meşədə olarkən hər bir insan...

Bax 4

# İlham Əliyev: “Bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır!”



Bax 2

## “Məktəblərin bərpası istiqamətində çox böyük işlər görülür”



Bax 6

## Bürokratik əngəlləri və mümkün korrupsiyanı aradan qaldıran xidmət

Ölkəmizdə xoşbəxt gələcəyimizə hesablanan iri layihələr sırasında “ASAN...




Bax 9

## Dostluğa və qardaşlığa söykənən Azərbaycan-Türkiyə həmrəyliyi

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin “Bir millət, iki dövlət” və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal...



Bax 8



## İranın Ermənistan üçün “qırmızı”, “qara”, “boz” xətti...

Məlum olduğu kimi, bugünlərdə erməni KİV-ləri İranın Ermənistandakı səfiri Abbas Bədəxşan Zohuri və səfirliyin hərbi attaşesi Bəhmən Sadeqin ölkənin müdafiə nazirliyinin müşayiəti ilə Basarkeçər...

Bax 11



## Əlaqələndirmə Qərargahının iclasında işğaldan azad edilmiş ərazilərdə görülən işlərin icra vəziyyəti müzakirə olunub

İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada...

Bax 4



## “Konstitusiya dəyişikliyi günün tələbi deyil”

“Son günlər bəzi saytlarda, ardınca isə sosial şəbəkələrdə Azərbaycanda...

Bax 7



## İordaniya qəzeti: “Azad edilmiş Şuşa öz sakinlərini gözləyir”

İordaniyanın “Əl Ənbat” qəzetində Qarabağa səfər etmiş iordaniyalı...

Bax 9

## Yevgeni Mixaylov: “Ermənistanın təxribatlarının motivatoru Fransa və ABŞ-dır”



Bax 13

## Jirinovskinin məqsədi nə idi?



Bax 14

## Əfsanəvi oyunçu “Fənərbaxça”ya transfer olub



Bax 16

# İlham Əliyev: “Bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır!”



**“İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu tarix Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Bu, ədalətin təntənəsi idi. Bu, qürurun təntənəsi idi, milli ləyaqətin təntənəsi idi, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə “Gülüstan” sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə nitq söyləyərkən bildirib. İyirmi birinci yüzilliyin 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad etdi və tarixi ədalət bərpa olundu.**

Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və xalq-iqtidar birliyi 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın işğaldan azad olunmasında əsas şərtləndirici amil oldu. Təbii ki, ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və ordumuzun güclənməsi nəticəsində Azərbaycan Vətən müharibəsində döyüş meydanında qalib ölkə olduğunu göstərə bildi. Bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizlədi və üçrəngli bayrağımız yolumuzu gözləyən torpaqlarımızda dalğalandı. Bu gün bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusunun dünyanın qabaqcıl ölkələri sırasında adı çəkilir.





Cənab İlham Əliyevin nitqində qeyd etdiyi kimi, İkinci Qarabağ müharibəsi bizim imkanlarımızı bütün dünyaya göstərdi: “Hətta bu gün mənə verilən məlumata görə, bəzi aparıcı Qərb mətbu orqanlarında, analitik dərgilərdə belə bir fikir ortalığa atılıb ki, hətta dünyanın aparıcı ölkəsi bizim qarşımızda olsaydı, onların da bizim qabağımızda heç bir şansı olmayacaqdı. Yəni, bu, onu göstərir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Mən bunu dəfələrlə deyirdim, hərbçilərlə görüşlər əsnasında, digər tədbirlərdə deyirdim, bu gün biz elə bir güclü ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik”.

Bu gün güclü Azərbaycan Ordusunun qələbəsi köçkünlərin doğma yurdlarına qayıtmasına səbəbdir. 44 günlük Vətən müharibədə dünya bir daha erməni terrorunu, barbarlığını, vəhşiliyini görmüş oldu. Müharibə dövründə ermənilərin mülki, dinc insanları hədəfə alınması, yaşayış yerlərinin dağıdılması dünyanın müxtəlif yerlərindən gəlmiş media nümayəndələrinin diqqətində oldu və yayımlanan reportajlarda ermənilərin törətdikləri hər bir vəhşilik dünyaya nümayiş etdirildi.

## “BİZ BÜTÜN GÜCÜMÜZÜ SƏFƏRBƏR EDİB BU MÜHARİBƏDƏ QƏLƏBƏ QAZANARAQ DÜŞMƏNİ TORPAQLARIMIZDAN QOVDUQ”

Əlbəttə ki, xalqın öz Prezidenti ətrafında bir yumruq olaraq birləşməsi tarixi qələbəmizin əldə olunmasına səbəb oldu. Bu, Azərbaycanın siyasi-diplomatik qələbəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan tərəfindən yüksək dəqiqliklə və vaxtında edilən siyasi-diplomatik gedişlər tariximizə yeni səhifə əlavə etdi. Qələbə tarixini yazdı. “Biz bütün gücümüzü səfərbər edib bu müharibədə Qələbə qazanaraq düşməni torpaqlarımızdan qovduq”, deyən Azərbaycan Prezidenti bildirib ki, düşməni elə rəzil vəziyyətə qoyduq ki, onlar bizim qabağımızda diz çökdülər, ağ bayraq qaldırdılar və məcbur olub kapitulyasiya aktına imza atdılar. 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi.

Artıq müharibənin başa çatmasından 7 ay ötür. İşğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə start verilib. Bu gün Azərbaycanda yeni bir həyat başlayıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlara yenidən nəfəs gəlir və bu məkanların infrastrukturu yenidən qurulur, yeni yollar çəkilir. Bildiyimiz kimi, 30 ilə yaxın işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılmışdır. Tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Erməni barbarlığının nəticəsi olaraq fərdi və çoxmənzilli yaşayış evləri dağıdılmışdır. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa işinə star verib, habelə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşdırır. “Baxın, müharibədən cəmi 7 ay keçib, nə qədər böyük işlər görmüşük” deyən dövlət başçısı diqqətə çəkib ki, bizdə bu hazırlıq olmasaydı, biz bunu edə bilməzdik: “İndi nə qədər vəsaitin olursa-olsun, əgər sənin texniki imkanın yoxdursa, kadr potensialın yoxdursa, infrastruktur layihələri vaxtında icra edilməyibsə, bunların heç yüzdəbirini edə bilməzsən. Amma bu gün misli görünməmiş bərpa işləri aparılır. Nəyin hesabına? Məhz hazırlıq hesabına. Ona görə biz güclü dövlət yaratmışıq, mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır”.

## “GÜN GƏLƏCƏK, BİZ ŞUŞADA BAX BU GÖVHƏRAĞA MƏSCİDİNİ BƏRPA EDƏCƏYİK”

Ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunun nümayişi oldu. Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunun təzahürüdür. Əlbəttə ki, Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. “2016-cı ilin Aprel döyüşləri onlara vurulan ciddi zərbə idi”, deyən Cənab Prezident onu da bildirib ki, biz Aprel döyüşlərindən sonra “Böyük Qayıdış”ın ilk təzahürü olan Cocuq Mərcanlı kəndini bərpa etdik: “Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzərini inşa edərkən və onu açarkən Mən deyirdim ki, gün gələcək, biz Şuşada bax bu Gövhərağa məscidini bərpa edəcəyik”. Həmin zaman yetişib. Bu gün Heydər Əliyev Fondu Şuşada Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin bərpa-təmir işlərini aparır. Hər üç məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Ermənistanın Şuşanı işğalda saxladığı dövrdə bir çox tarixi-mədəni abidələrlə yanaşı, bu məscidlər də vandalizmə məruz qalıb. Yuxarı Gövhər ağa məscidinin interyeri məhv edilib, minarələrinin dekoru zədələnib, örtükləri və s. dağıdılıb.Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı imkan verəcək ki, tezliklə işğaldan azad olunan ərazilərimiz yeni və müasir məkana çevriləcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP-a birləşən siyasi partiyaların bir qrup nümayəndəsinə üzvlük vəsiqələrinin təqdim olunması mərasimi keçirilib

**Avqustun 4-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın VII Qurultayında YAP-a birləşən siyasi partiyaların bir qrup nümayəndəsinə üzvlük vəsiqələrinin təqdim olunması mərasimi keçirilib.**

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu il martın 5-də keçirilən YAP-ın VII Qurultayında mühüm qərarlar qəbul olunub. Bu qərarlar sırasında 6 siyasi partiyanın YAP-a qoşulması da xüsusi vurğulanmalıdır. Onun sözlərinə görə, qurultayın keçirilməsində əsas məqsəd 44 günlük Vətən müharibəsindən sonra ölkəmizdə və regionda yaranmış yeni reallıqlar fonunda YAP-ın qarşısında duran vəzifələrin və yeni dövr üçün fəaliyyət istiqamətlərinin müəyyən edilməsindən ibarət olub.















YAP Sədrinin müavini qeyd edib ki, 30 ilə yaxın işğal altında olan ərazilərimizin azad olunması ilə bağlı ötən illər ərzində dövlətimiz ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sistemli iş aparıb: “Məlumdur ki, bu dövrdə Ermənistan və onun havadarları, erməni diasporu, lobbisi Azərbaycanın beynəlxalq imicinə zərbə vurmaq üçün kampaniyalar aparıblar. Bu informasiya müharibəsində ölkəmiz tərəfindən Azərbaycanın haqq səsinin dünyaya çatdırılması istiqamətində böyük işlər görüldü. İqtisadiyyatımızın bir neçə dəfə artması, xüsusilə güclü ordunun yaradılması, Azərbaycanın nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməsi və ölkəmizin etibarlı tərəfdaş kimi qəbul olunması, tolerantlıq məkanı kimi özünü təsdiqləməsi bizi qələbəyə doğru aparan mühüm amillərdir. Eləcə də, Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hücum diplomatiyası nəticəsində nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi haqqında sənədlər qəbul olundu ki, bu sənədlər öz gücümüzə torpaqlarımızı işğaldan azad etmək üçün hüquqi baza rolunu oynadı”.







Tahir Budaqov deyib ki, 44 günlük Vətən müharibəsində qələbəmizi şərtləndirən əsas amillərdən biri xalq-iqtidar birliyi və vətəndaş həmrəyliyidir. Müharibə başlayan gün ölkədə fəaliyyət göstərən siyasi partiyaların birgə bəyanat verərək Ali Baş Komandana və ordumuza dəstək nümayiş etdirməsi bunu bir daha təsdiqləyir. Eyni zamanda, 6 siyasi partiyanın YAP-a qoşulması da Azərbaycanda milli həmrəyliyin növbəti təcəssümüdür.

Qarşımızda böyük vəzifələrin dayandığını deyən YAP Mərkəzi Aparatının rəhbəri diqqətə çatdırıb ki, bu vəzifələrin yerinə yetirilməsi üçün daha da güclü olmalıyıq. Bu baxımdan, Yeni Azərbaycan Partiyası üçün də yeni prioritetlər mövcuddur. Partiyanın hazırlanan yeni proqramında da bu prioritetlər geniş şəkildə öz əksini tapacaq. Prioritetlər sırasında Azərbaycana dost olan ölkələrin siyasi partiyaları ilə əməkdaşlığın daha da genişləndirilməsi məsələsi də xüsusi yer tutur. Buna nümunə kimi YAP və AK Parti arasında imzalanmış əməkdaşlığa dair niyyət protokolunu və hər iki partiyanın nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini vurğulamaq yerinə düşər.

Tahir Budaqov YAP-ın sıralarına qoşulmuş 6 siyasi partiyanın nümayəndələrinin də partiyamızın həyatında fəal iştirak edəcəyinə inamını ifadə edib.

Tədbir iştirakçılarından Azərbaycan Yurddaş Partiyasının sabiq sədri Gülayə Səfərova, Azərbaycan Kəndli Partiyasının sabiq sədri Məmməd Məmmədov və Azərbaycan Demokrat Sahibkarlar Partiyasının sabiq sədri Qasım Qasımov çıxış edərək Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevə təşəkkür edib və bundan sonra YAP üzvləri kimi üzərlərinə düşən vəzifələri layiqincə doğrultmağa çalışacaqlarını vurğulayıblar.

Sonra tədbir iştirakçılarına Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olunub.

# Əlaqələndirmə Qərargahının iclasında işğaldan azad edilmiş ərazilərdə görülən işlərin icra vəziyyəti müzakirə olunub



**İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının avqustun 4-də növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclası açan Qərargahın rəhbəri, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim diqqət mərkəzində saxladığı işğaldan azad edilmiş ərazilərin bərpa və yenidənqurma prosesləri ilə əlaqədar verdiyi tapşırıq və göstərişlərin, aparılan işlərin istiqamət və prioritetlərinin müəyyən edilməsi baxımından xüsusi əhəmiyyətini vurğulayıb.

Ümummilli prioritetlərdən biri olan bərpa və yenidənqurma proseslərinin maksimum səmərəli, keyfiyyətli, sürətli, planlı və əlaqələndirilmiş şəkildə icrasının əsas məqsəd olduğunu qeyd edən Qərargahın rəhbəri görülən işlərin dinamik olaraq dəyişən vəziyyətə uyğun icrasının vacibliyini bildirib.

İclasda əhalinin qayıdışı, şəhid ailələri və müharibə iştirakçılarının sosial təminatı, işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın inkişafı, şəhərsalma, nəqliyyat-infrastruktur layihələrinin müfəssəl planlaşdırılması və ahəngdar icrası ilə bağlı məsələlər ətraflı şəkildə müzakirə edilib. Qaldırılmış məsələlərlə əlaqədar növbəti addımlar müəyyən edilib və müvafiq tapşırıqlar verilib.

İşğaldan azad edilmiş ərazilərin yeni iqtisadi rayonlar bölgüsü nəzərə alınmaqla, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq bərpası və yenidən qurulması işlərinin sürətlə və yüksək peşəkarlıqla aparılması üçün bütün imkanların səfərbər edilməsinin vacibliyi vurğulanıb.



## Pir Nur-ul Həqq: "Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi Pakistanda milli Qələbə kimi qarşılanıb"

Pakistan və Azərbaycan xalqları qardaşdır və pakistanlılar 44 günlük müharibəni özlərinin ədalətli mübarizəsi kimi qiymətləndiriblər. Qardaş ölkənin bu müharibədə böyük Zəfəri və öz torpaqlarını işğaldan azad etməsi də Pakistanda milli Qələbə kimi qarşılanıb. Bundan sonra Pakistan qardaş Azərbaycanla birlikdə həmin torpaqlarda quruculuq işlərinin aparılmasını, ermənilərin dağıtdıqları dini, tarixi abidələrin, məscidlərin bərpasını həyata keçirməyə hazırdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Qahirədə Ümumdünya Fətva Evləri və Heyətləri Baş katibliyinin təşkilatçılığı ilə keçirilən "Fətva evləri rəqəmsal texnologiyalar dövründə: İnkişaf problemləri və əməkdaşlıq mexanizmləri" mövzusunda beynəlxalq konfransda iştirak edən Pakistanın dini işlər və vəqflər naziri Pir Nur-ul Həqq Misirdəki Azərbaycan diasporunun rəhbəri, tədqiqatçı-alim Seymur Nəsirovla görüşündə söyləyib.

Pakistanlı nazir bildirib ki, 15 il əvvəl Azərbaycana səfər edib və qardaş ölkədə pakistanlılara münasibətdə böyük ehtiram və sevginin şahidi olub. O əlavə edib ki, Misirdə geniş fəaliyyət göstərən Azərbaycan diaspor mərkəzində pakistanlı tələbələrə göstərilən diqqət və qayğı da təqdirəlayiqdir. Nazir deyib: "Mən və rəhbərlik etdiyim nazirlik Azərbaycanla əlaqələrin daha da möhkəmlənməsinə töhfələr verməyə hazırıq, qardaş ölkənin müvafiq qurumları və ilahiyyatçı alimləri, din xadimləri ilə sıx əməkdaşlıq edəcəyik. Bu məqsədlə yaxın vaxtlarda Azərbaycana səfər etməyi də nəzərdə tuturam. Pakistan və Azərbaycan liderlərinin dostluq və qardaşlıq münasibətləri, xalqlarımızın bir-birinə yüksək ehtiramı ikitərəfli əlaqələrin daha da inkişafına zəmin yaradır".

# Meşə yanğınları ekologiyanın məhvinə səbəb olur

**Meşə yanğınları, əsasən, müxtəlif kortəbii hadisələrlə yayılan yanğına deyilir. Meşə ən çox əhalinin bu mövzuya səhlənkar yanaşması və şiddətli istilər səbəbi ilə baş verir. Meşədə olarkən hər bir insan davranış qaydalarına riayət etməlidir. Yəni, meşədə istirahət zamanı tonqalı söndürmək, siqaretdən istifadə etdikdən sonra kötüklərinin laqeyd şəkildə yerə atılmaması qaydalarına əməl olunmalıdır.**

Meşə yanğını zamanı canlılar ölür və təbiətin nizamı pozulur. Yanğınlar meşə təsərrüfatına böyük ziyan vurur: çoxlu oduncaq məhv olur, meşənin tərkibi çirklənir, ağacların boy artımı zəifləyir, heyvanat aləmi məhv olur və s. Meşə yanğınlarına qarşı mübarizə meşə təsərrüfatları tərəfindən yerinə yetirilir.

Meşə yanğınlarının əsas baş vermə səbəbləri bunlardır:

- Meşədə təhlükəsizlik tədbirləri görülmədən oçaq qalanması.
- ocağın söndürülmədən tərk edilməsi.
- Söndürülməmiş siqaret və ya kibriti meşəyə atmaq.
- Meşədə gecə gəzintisi zamanı, fakeldən istifadə etmək.
- Şüşə qırıqlarını meşəyə tullamaq. Şüşə qırıntılarından çıxan şüaların meşədə əks olunması ilə yanğın baş verə bilər.
- Uşaqların meşədə odla oynamaları.
- Əyləncə məqsədi ilə meşədə təhlükəsiz şəraitdə ocaq qalamaq.

Bu gün həyatı təhdid edən ən əhəmiyyətli problemlərdən biri, təbii ehtiyatların azalması ilə yanaşı, əsasən insan faktorlarının yaratdığı fiziki, kimyəvi və genetik çirklənmələrdir. Təbii ehtiyatların strukturunda dəyişikliklər ekoloji tarazlığın pozulmasına səbəb olur. Bir çox həyat formasının öz daxilində, qarşılıqlı və ekoloji faktorlarla yaratdığı kompleks əlaqələr nəticəsində meydana gələn ekoloji tarazlığın pozulması nəticəsində çox uzun bir prosesdən keçmək lazımdır. Bu tarazlığı bərpa etmək üçün ekoloji tarazlığın ən vacib elementlərindən biri olan və özünü yeniləyə bilən meşələr, nəinki bir çox canlı növü üçün yaşayış yeri təmin edir, həm də mövcud yaşayış şəraitinin yaxşılaşmasını və davamlılığını təmin edir. Müxtəlif səbəblərdən ekoloji tarazlığın pozulması: Quraqlıq, eroziya, sel və daşqın kimi cəmiyyət həyatını ciddi şəkildə təhdid edən ekoloji problemlərin ortaya çıxmasına səbəb oldu və bu hadisələrdə insan sağlamlığının qorunmasında meşə ehtiyatlarının əhəmiyyəti daha geniş dairələr tərəfindən araşdırılır.



Yanğın baş verən meşə sahələrinə ən qısa zamanda müdaxilə etmək öhdəliyi, tətbiq olunacaq texnikanın düzgün seçilməsinə nəzarət olunmalıdır.

Mövzu ilə əlaqədar sosioloq Əhməd Qəşəmoğlu fikirlərini belə ifadə etdi: "Meşə yanğını zamanı böyük bir təhlükə yaranır ki, yaşayış yerlərinə sıçraya bilər. Meşələr yanmağa başlayanda ən dəhşətlisi hava ilə sağlamlıq üçün zərərli tüstü ilə dolmasıdır. Ekoloji vəziyyət xeyli pisləşir. İnsanlar məcburi olaraq yaşayış yerlərindən uzaqlaşırlar. Yəni xeyli yaşayış yerləri ani olaraq boşaldılır. Qısa zaman ərzində ani olaraq bu hadisələr ardıcıl olaraq baş verir. Eyni zamanda meşədəki ağaclar uzun-uzun illər boyu inkişafını dayandırır. Artıq konkret infrastruktur yaranmış meşə yanaraq külə çevrilir. Ağacların yanmasından başqa heyvanlar və digər canlılar da məhv olunur. İnsanların gözü qabağında təbiət aləmi yanğınla bərabər yanır. Təbiətdə yanğınların qarşısını almaq üçün çox diqqətli olmalıyıq. Son 40 ildir ki, hava və iqlimin dəyişilməsi yönündə fikirlər haqqında mülahizələr aparılır. İstehsalat prosesində havaya qalxan tüstülərin qarşısını almaq tədbirləri görmürlər. Yer üzündə müəyyən təbəqə yaranır ki, belə olduqda hava, iqlim pozulur. Bunun üçün ciddi tədbirlər görülməlidir. Meşə zolağı olan yerdə çoxlu su anbarları düzəltmək mümkündür. Müxtəlif yerlərdə bunlar düzəldilə bilər. Düşünürəm ki, yanğın söndürənlər üçün müəyyən yolların açılmalısı vacib məqamdır. Meşəyə xidmət edən işçilər elə işləməlidirlər ki, yanğını ani olaraq söndürə bilsinlər. Eyni zamanda əhalinin maariflənməsi bu sahəni tamamilə bilməsi çox vacibdir. Bu sahədə müəyyən işlər aparılır. Meşədə əhalinin istirahəti zamanı əvvəlki kimi istənilən yerə manqal qoyulması qadağan olunub. Bu qadağan öz nəticəsini göstərir. Əhali yanğın zamanı davranış qaydalarınına əməl etməli və bu mövzuda maariflənməlidir. Yaxında yanğın baş verən zaman əhali ərazini necə tərk etməli olduğunu bilməlidir. Yanğının söndürülməsi zamanı meşədə təhlükə mənbəyi gördükdə bunu aradan qaldırmaq üçün qaydaları bilməlidir. Əhaliyə meşədə istirahət zamanı yanğın təhlükəsinin olmasını sürətli şəkildə maarifləndirmək lazımdır. Məktəblərdə bu mövzu ilə əlaqədar olaraq maarifləndirilmə işləri aparılmalıdır. Eyni zamanda təxribatlara görə də meşə yanğını baş verə bilər. Bu zaman müşahidə qrupu təşkil olunmalıdır. Bu texniki işlərin görülməsi baxımından görülməsi kompleks yanaşmaya gətirib çıxarır. Qardaş Türkiyədə baş verən yanğın fəlakətindən dərs çıxarmaq lazımdır. Düşünürəm ki, bundan sonra maarifləndirilmə işləri daha çox aparılacaq. Elmi tədqiqat ilə bu işlər görülməlidir".

*Qönçə Quliyeva*

# Millət ilə onun vəkili arasında qütbləşmə yaradanlar KİMDİR?



***Son günlər gündəmdə olan məsələ Eldəniz Səlimovun polis işçisinə xəsarət yetirməsi və bu səbəbdən deputatın toxunulmazlığına xitam verilərək həbs olunmasıdır. Digər tərəfdən isə, vəziyyətdən istifadə edən qüvvələr parlamentin buraxılması barədə şayiələr də yayırlar.***

Çox keçmədən parlament məsələni yerinə qoymaq üçün iclas da keçirib. Konstitusiyanın 90-cı maddəsinin II hissəsinə görə, Milli Məclisin deputatının toxunulmazlığına yalnız Baş prokurorun təqdimatına əsasən Milli Məclisin qərarı ilə xitam verilə bilər. Konstitusiyanın 89-cu maddəsinə əsasən, cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda Milli Məclisin deputatı mandatından məhrum edilir.

Məsələ Milli Məclisin iclasında müzakirə edilərkən deputatın ittiham edildiyi cinayətdə təqsirli olub-olmaması müzakirə oluna bilməz. İclasda iştirak edən deputatlar yalnız deputat toxunulmazlığına xitam verilməsi barədə Baş prokurorun təqdimatında kifayət qədər əsasların olub-olmamasını aydınlaşdıra bilərlər və bu məqsədlə Baş prokurora suallar verə bilər, deputat toxunulmazlığına xitam verilməsinin lehinə və ya əleyhinə çıxış edə bilərlər. Bütün bu şərtlərə rəğmən bir sıra duputatlar bitərəf mövqedən qaçaraq qərəzli ifadələrdən istifadə etmişdir.

Təyin olunmuş qaydalara görə, Milli Məclisin deputatının toxunulmazlığına xitam verilməsi barədə Milli Məclisin qərarı azı 63 səs çoxluğu ilə qəbul edilir.

Hadisə, iyulun 29-da saat 01 radələrində Xaçmaz şəhərində yerləşən "Starıy Dvor" restoranında Azərbaycan Respublikası Milli Məclisinin deputatı Eldəniz Səlimovun polis əməkdaşına xidməti vəzifələrinin icrası ilə əlaqədar zor tətbiq etməsi barədə Daxili İşlər Nazirliyindən daxil olan material Baş Prokurorluqda araşdırılıb. Toplanan material üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 309.2-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə cinayət işi başlanıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb, iş üzrə intensiv istintaq hərəkətləri aparılıb.

Bu hadisədən sonra, parlamentin buraxılması barədə fikirlər yayılsa da, çox keçmədən rəsmi bəyanatlar gəldi. "Azərbaycanda referendum keçirilməsi və parlamentin buraxılması məsələsi gündəmdə yoxdur". "Ölkə Konstitusiyasına heç bir dəyişiklik nəzərdə tutulmur. Hazırda hökumətdə belə bir plan yoxdur və bununla bağlı heç bir müzakirə aparılmır. Bu cür məlumatların yayılması əsassızdır və həqiqəti əks etdirmir. Ona görə də belə bir həssas dönəmdə kütləvi informasiya vasitələrini ictimai rəyi çaşdırmamağa və yoxlanılmamış məlumatların tirajlanmasına yol verməməyə çağırırıq".

Məsələ barədə deputatlar da öz fikirlərini bildiriblər. Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli deyib. "Bu gün hər birimizin içində kədər var. Bu, onunla bağlı deyil ki, öz həmkarımızın qələmini qırırıq. Burada hər bir deputatın nüfuzu üçün zərbə görürük. Mən də hiss edirəm ki, xalqımızın gözündə kiçildik. İntizam Komissiyasının qərarını alqışlayıram. Çünki o iclasda ancaq xəsarət yetirmədən danışılıb".

"Niyə polis gedib öz rəhbərinə məlumat vermədi? Deməli, polisin yiyəsi var, ancaq deputatın yiyəsi yoxdur. İndi biz neyləyək rayonlara gedəndə polis bizə hərbi salam verdirdi, indi bizmi onlara verək? Hər gün bizə polis orqanlarından dəfələrlə şikayətlər gəlir. Mən bilirəm ki, Eldəniz Səlimov mənə heç nə edə bilməz. Amma digər rəsmi qurumlar haqqımda axtarıb nəsə tapa bilər. Hərəmizi bir adla götürüb deputat səlahiyyətindən məhrum edək. Onda camaat da düz deyir ki, parlamenti buraxaq", - o vurğulayıb.

Milli Məclisin sədri Sahibə Qafarova isə deputata sərt reaksiya verib. O bildirib ki, deputatın yiyəsi xalqdır: "Şəxsən mən sizi iclasdan sonra kabinetimə dəvət edəcəm. Sizi 10 dəqiqəlik səsə qulaq asmağa məcbur edəcəm. Mən özüm kabinetdən çıxacam, siz ona qulaq asarsınız. Sizin çıxışınız məni məyus etdi".

"Mən bilirəm ki, Eldəniz Səlimov mənə heç nə edə bilməz. Amma digər rəsmi qurumlar haqqımda axtarıb nəsə tapa bilər. Barışdırardın, çıxıb gedərdi də. Xəsarət yetirib, eləyib də. İndi gündə bir adla bizi deputat səlahiyyətindən məhrum eləsinlər?! Onda camaat da düz deyir ki, parlamenti buraxaq" sözlərini Tahir Kərimli dünən parlamentin iclasında deyib.

Polis zabitini döyən həmkarı Eldəniz Səlimovun qanunsuz hərəkətini ört-basdır edilməsi təşəbbüsünü irəli sürdü. Yəni dəqiqliklə demək olar ki, bu sözlər, sadəcə, həmkarını müdafiəyə hesablanmamışdı. Bu sözlər ölkədəki ümumi deputat nüfuzunun müdafiəsinə hesablanmışdı.

Xatırladaq ki, millət vəkili Tahir Kərimli vaxtilə Azərbaycanın Ali Məhkəməsinin sədri olub və "Fəxr elə ki, səni deputat döyür", - deyən Səlimovla eyni təfəkkürdə olduğunu açıq şəkildə parlament tribunasından elan etdi.

Beləliklə, demək olar ki, parlament buraxılmasa da, onun üzvləri arasındakı dəyişikliklər hələ sonlanmayıb. "Xəsarət yetirib, eləyib da". Bu, bir deputat sözüdürmü? Söhbət təkcə polisin döyülməsindən getmir. Qanun heç bir kəsə qarşı zorakılıq etməyə imkan vermir. Əmin olmaq olar ki, bu düşüncəyə sahib olan deputatlar da daxil olmaqla bütün dövlət işçiləri də layiq olduqları cəzanı alacaqlar. Çünki dövlətin verdiyi səlahiyyətdən və nüfuzdan sui-istifadə etmək, millətin etimadını yanıltmaq heç bir dövlət qulluqçusuna yaraşmaz. Millətin vəkili, millətin hüquqlarını müdafiə etməlidir. Onların istər vətəndaşa, istərsə də polis işçisinə zərər verməsi birmənalı olaraq qəbul edilmə bilməz.

Milli Məclisin İntizam Komissiyasının sədri Eldar İbrahimov İctimai Televiziyanın "Diqqət mərkəzi" verilişində qonaq olarkən deyib: "Eldəniz Səlimov Milli Məclisdə özünü elə tərbiyəli aparırdı, bəzən mən deyirdim ki, bu, nə qədər tərbiyəli oğlandı. Kaş ki, bizim deputatların hamısı belə olsun. Bir də görürsən ki, kənarda daha çox tərbiyəli görünən insan ortalığa çıxanda tərbiyəsiz hərəkətlər edən adamdır. Yəni, insanları tanımaq olmur. Amma bütün hallarda deputat o adam olmalıdır ki, axı səni mötəbər bir məclisə seçiblər. Milli Məclisin deputatı böyük addır, şərəfli addır. Sənin nişanın var, toxunulmazlığın var. Konstitusiya ilə sənə güzəştlər verilib. Bunu yerə vurmaq olarmı?"

O, polisə qarşı nalayiq hərəkətlərə yol verən Eldəniz Səlimov haqda danışarkən onu da qeyd edib ki, bəzi deputatlar baş verənləri anlamırlar: "Deputat həmkarımın hərəkətinə görə iki gecədir yata bilmirəm. Milli Məclisdə də deputatların çoxu bunun üçün narahat oldular. Artıq narahatlıqdan keçib, çünki günah bunun özündə olub. Bu adam deputatlıq statusundan istifadə edib, özü üçün hər şey yaradıb. Mən onları bilmirəm, amma belə deyirlər. İnsan nə qədər yuxarı qalxırsa, o qədər başını aşağı dikməlidir. Qudurma söhbəti var da... İnsan qudurmamalıdır. Mən bunu təhqir mənasında demirəm. Sadəcə, fikrimi ifadə etmək istəyirəm ki, insanın nə qədər imkanı genişlənirsə, hörməti artırsa, bir o qədər də başıaşağı, təvazökar olmalıdır", - deyə E.İbrahimov qeyd edib.

Digər tərəfdən, "Onda camaat da düz deyir ki, parlamenti buraxaq" cümləsini işlədən Tahir Kərimli, nəzərə almalıdır ki, parlamenti buraxmaq fikri xalqdan yox, vəziyyətdən istifadə edən müxalif qüvvələrdən çıxıb. Yəni bu fikir xalqdan çıxsa belə, bu cür situasiyada bir deputat tərəfindən deyilməməli idi. Bu cümlənin qabardılması daha da qütbləşdirmə yaradaraq, vəziyyəti daha da qəlizləşdirir.

Tahir Kərimlinin "Amma digər rəsmi qurumlar haqqımda axtarıb nəsə tapa bilər. Hərəmizi bir adla götürüb deputat səlahiyyətindən məhrum edək" bu fikir isə problemi daha da alovlandırmaqdan başqa ortaya digər məsələlər də atır. Deməli, deputat hesab edir ki, ya rəsmi qurumlar, sadəcə, şərləməklə məşğuldurlar, ya da bütün deputatlar qanun pozuntuları ilə məşğuldur.

*Zərdüşt Quluzadə*

TƏHLİL

## "Parlamentin buraxılmasına hər hansı bir zərurət yoxdur"

**Bəzi KİV-lərdə guya Azərbaycanda Konstitusiyaya dəyişikliklərin edilməsi ilə əlaqədar referendumun keçirilməsi və Parlamentin buraxılmasına dair heç bir fundamental əsası olmayan fikirlər yer alıb. Bu kimi saxta məlumatların yayılması süni şəkildə gündəm yaratmağa hesablanmış uğursuz manipulyasiyaslar olmaqla yalnız radikal siyasi qüvvələrin maraqlarına xidmət edə bilər.**



*Elşad Mirbəşir oğlu*
*Milli Məclisin deputatı*

Əvvəla, dövlət başçımız tərəfindən ölkəmizdə genişmiqyaslı və köklü islahatlara start verilən zaman yeni çağırışlara ən tez reaksiya verən qurumlardan biri Milli Məclis oldu. Azərbaycan Parlamenti cənab Prezidentin yeni idarəçilik konsepsiyasına adekvat olaraq növbədənkənar seçkilərə getdi və nəticədə hakimiyyətin bu qanadında böyük dəyişikliklər reallaşdı. Növbədənkənar parlament seçkilərindən sonra ölkəmizin siyasi palitrasında təmsil olunan siyasi qüvvələr arasında müsbət dialoq mühiti formalaşdı. Bu, yeni siyasi mədəniyyətin təzahürüdür.

Ötən müddət ərzində ali qanunverici orqan yeni formalaşan konfiqurasiyası ilə istər qanunvericilik fəaliyyəti, istərsə də digər funksiyaları çərçivəsində mühüm nailiyyətlərə imza atmışdır. Milli Məclis 2020-2021-ci qanunvericilik ilində qanun yaradıcılığı istiqamətində olduqca intensiv fəaliyyətlə yadda qaldı. Pandemiya şəraitində millət vəkilləri seçicilərlə həm onlayn, həm də canlı formada görüşlər keçirməkdədirlər. Seçicilərin müraciətləri, qayğıları diqqətlə dinlənilir, onların həlli ilə bağlı əlaqədar icra orqanlarına məktublar göndərilir. Eyni zamanda deputatlar vətəndaşları narahat edən məsələləri həm parlament tribunasından səsləndirir, həm də media vasitəsilə cəmiyyətə çatdırır.

Bu yaxınlarda Azərbaycan, Türkiyə və Pakistan parlamentləri arasında imzalanan Bakı Bəyannaməsi bir daha təsdiq etdi ki, Milli Məclis ölkəmizin beynəlxalq əlaqələrinin qurulmasına olduqca mühüm töhfələr verir. Parlament diplomatiyasının inkişaf etdirilməsi daha intensiv xarakter almışdır.

Bir sözlə, Azərbaycanda referenduma və ya Parlamentin buraxılmasına hər hansı bir zərurət yoxdur. Hakimiyyətin hər üç qanadı öz funksiyalarını peşəkarlıqla yerinə yetirir.

## Müşfiq Məmmədli:
## Parlamentin buraxılacağı ilə bağlı yayılan iddiaların heç bir əsası yoxdur

Xaçmaz bölgəmizi təmsil edən deputatla bağlı yaranan məlum insident təbii ki, xoş və arzuolunan deyil. Fəaliyyətimizdə atdığımız hər addıma diqqətlə yanaşmalıyıq. Məsələ hüquq çərçivəsində həllini tapacaq. Artıq parlamentin müvafiq komissiyası müzakirə apararaq rəyini verib. Plenar iclasda da bu məsələ müzakirə olunacaq.



Bu fikirləri Milli Məclisin Səhiyyə Komitəsinin üzvü Müşfiq Məmmədli söyləyib.

Deputat deyib ki, bu insidenti ümumiləşdirmək düzgün deyil və bu, heç bir halda parlamentin fəaliyyətinə kölgə sala bilməz.

Müşfiq Məmmədli Azərbaycanda referendumun keçiriləcəyi və parlamentin buraxılacağı ilə bağlı əsassız iddialara da münasibət bildirdi. Deputat qeyd edib ki, bu cür məlumatların yayılması əsassızdır və həqiqəti əks etdirmir. Ötən dövrə nəzər salanda aydın görünür ki, altıncı çağırış Azərbaycan Milli Məclisi parlamentarizmin inkişafında müsbət yeniliklər yaradır. Milli Məclisin mövcud say tərkibi və sturkturu səmərəli idarəetmə üçün məqbuldur. Son çağırışdan sonra Milli Məclisdə islahatların genişlənməsi müşahidə olunur. "Parlamentin deputatı olaraq hər zaman seçicilərimizin fikirlərini, düşüncələrini və onların problemlərini işıqlandırmağa, müvafiq dövlət orqanlarının nəzərinə çatdırmağa, həmçinin ölkəmizin siyasi həyatında fəal iştirak etməyə çalışırıq. Son çağırış Milli Məclisin fəaliyyəti dövründə çox taleyüklü qanunlar qəbul olunub. Parlamentin idarə olunması, texniki imkanların genişləndirilməsi istiqamətində parlamentin sədri tərəfindən islahatlar həyata keçirilib"- deyən Müşfiq Məmmədli bildirib.

Deputat qeyd edib ki, VI çağırış Milli Məclis öz fəaliyyətinin dövlət başçısının tövsiyələrinə uyğun, yüksək səviyyədə qurulması üçün zəruri addımlar atıb. Ona görə də parlamentin buraxılacağı ilə bağlı yayılan iddiaların heç bir əsası yoxdur.

# YAP Kəlbəcər rayon təşkilatının X hesabat konfransı keçirilib

**Avqustun 4-də Yeni Azərbaycan Partiyası Kəlbəcər rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**





Konfransın gündəliyi təsdiqləndikdən sonra hesabat məruzəsi ilə çıxış edən YAP Kəlbəcər rayon təşkilatının sədri Akif Əsgərov bildirib ki, IX konfransdan ötən dövrdə 254 nəfər Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunub



və hazırda partiya üzvlərinin ümumi sayı 4309 nəfərdir. Partiya üzvlərinin 1917 nəfəri gənclərdən, 1749 nəfəri isə qadınlardan ibarətdir. Gənclərin sayının daha çox olması bir daha onu göstərir ki, YAP gələcəyin və gəncliyin partiyasıdır.

Tarixi Zəfərimizdən bəhs edən Akif Əsgərov vurğulayıb ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti, rəşadətli Ordumuzun qəhrəmanlığı sayəsində qazandığımız Qələbə hər birimizdə böyük qürur hissi yaratmaqla yanaşı, işğaldan azad edilmiş torpaqlarımızda qu-





ruculuq və bərpa işlərində fəal iştiraka səsləyir. Kəlbəcər rayonu tarixi sahibinə qayıtmaqla bu gün yeni həyatını yaşayır. YAP Kəlbəcər rayon təşkilatı hər zaman olduğu kimi, bu gün də partiyamızın Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşərək gələcəyə böyük addımlarla irəliləyir.

Sonra Yeni Azərbaycan Partiyası Kəlbəcər rayon təşkilatının Nəzarət Təftiş Qrupunun sədri Ramil Salmanovun hesabatı dinlənilib.

Müzakirələr zamanı Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayev, Milli Məclisin deputatı Aqil Məmmədov, YAP Kəlbəcər rayon təşkilatı Gənclər Birliyinin sədri Hikmət Bağırov, rayon təşkilatının Şura üzvü Şəlalə Məmmədova hesabat dövrü ərzində görülən işlərdən bəhs ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, son 18 ildə cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyamızın böyük ənənələri var. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq. Yeni Azərbaycan Partiyasının VII qurultayında dövlət başçısı, partiyanın Sədri cənab İlham Əliyevin proqram xarakterli, müasir dövrün tələblərini, 44 günlük Vətən müharibəsində Zəfərimizin yaratdığı yeni reallıqları özündə əks etdirən nitqi hər bir partiya üzvünün qarşısında yeni vəzifələr qoydu.

2020-ci ilin tariximizə Zəfər ili kimi daxil olduğunu qeyd edən Ə.Tağıyev Ağdam, Kəlbəcər və Laçın rayonlarının siyasi yolla azad edilməsini Azərbaycanın böyük siyasi uğuru kimi dəyərləndirib. Qeyd edib ki, 44 gündə nəinki 30 ilə, əsrlərə sığmayan Zəfər qazanılıb.

Ə.Tağıyev YAP Kəlbəcər rayon təşkilatına gələcək fəaliyyətində uğurlar, növbəti konfransın Kəlbəcərdə keçirilməsini arzulayıb.



Konfransda YAP Kəlbəcər rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

## "Məktəblərin bərpası istiqamətində çox böyük işlər görülür"

*Təhsil eksperti şərh etdi*



"İlk növbədə qeyd edim ki, dünyaca təhsilə diqqət və qayğı göstərən ilk ölkələrdən biri Azərbaycandır. İstər pandemiya, istərsə də post-pandemiya dövründə Azərbaycan təhsil islahatlarına kifayət qədər çevik reaksiya verən ölkələr sırasındadır. Azərbaycan o ölkələrdəndir ki, pandemiya dövründə təhsil alan şəxslərin təhsil haqlarını öz üzərinə götürdü". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, son 10 il ərzində ölkədə 3500-dən çox yeni məktəb binası tikilib və yaxud da qəzalı məktəbdə olan məktəblər təmir olunub: "Bütün bunlar ölkə başçısının təhsilə göstərdiyi birbaşa diqqətin sübutudur. Eyni zamanda, birinci vitse-prezident Mehriban Əliyeva uşaq bağçaları ilə bağlı xüsusi diqqət və qayğı göstərir. Biz bilirik ki, 30 ilə yaxın müddətdən sonra Azərbaycanın tarixi torpaqları azad edildi və bu zaman 44 günlük zəfərlə başa çatan müharibə dövründə ermeni işğalçıları istər işğal altında olan, istərsə də digər ərazilərdə məktəblərə ciddi şəkildə zərər verdilər. Yeni tədris ilində həmin məktəblərdə tədris prosesi bərpa edilməlidir. Ölkə başçısı cənab İlham Əliyev 4 günlük müharibə ərzində erməni işğalçılarının hücumu nəticəsində dağılmış məktəblərin bərpası haqqında qərar verdi ki, bu da olduqca müsbət bir addımdır".

Kamran Əsədov sözlərinə belə davam edib: "Artıq bilirik ki, Azərbaycanın diplomatik fəaliyyəti nəticəsində ermənilərin törətdiyi vəhşiliklər dünya ictimaiyyətinə çatdırılır. Biz qısa müddət ərzində bu məsələləri bərpa etməliyik ki, yeni tədris ilində azərbaycanlı şagirdlər həmin məktəblərdə təhsil prosesində iştirak etsinlər. Ona görə də mən bu addımı çox müsbət qiymətləndirirəm. Ümumilikdə, son illərdə məktəblərin tikilməsi, yenidən qurulması, bərpası istiqamətində çox böyük işlər görülür. Təkcə bu il paytaxt Bakıda 8 yeni məktəb binası tikilir. Ümumilikdə, Azərbaycanda son illərdə tikilən yeni məktəb binalarının sayı regiondakı bütün ölkələrin məktəblərinin sayından dəfələrlə çoxdur".

**Ayşən Vəli**

## Kişi və qadınlarda olan daxili piylənmənin səbəbləri

*Qida mütəxəssisi açıqladı*

**"Ümumiyyətlə, piylənməyə səbəb olan qidalar və piylənməyə səbəb olan amillərdən danışarkən əsas odur ki, qəbul etdiyimiz qidaları düzgün şəkildə enerjiyə çevirmədikdə, bu, piylənmə ilə nəticələnir. Ümumiyyətlə, qadınlar daha çox piylənməyə meyillidir və burada yaş faktoru da özünü göstərir ki, 25 yaşdan sonra qadınlar artıq daha çox piylənməyə məruz qalır". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib.**

Onun sözlərinə görə, bu məsələyə diqqətlə yanaşmaq lazımdır: "Mütləq şəkildə bəzi qidalar var ki, qidaları və düzgün miqdarlarda qəbul etməliyik. Əgər həmin gün az fiziki hərəkətli olacağıqsa və yaxud da idman etməyəcəyiksə, həmin qəbul etdiyimiz enerjini çevirməyəcəyiksə, bu, mütləq şəkildə yağa çevriləcək. Eyni zamanda, kalori miqdarına da diqqət etməliyik və daha sonra yağlanmaya səbəb az hərəkətlilikdir, ondan başqa da bəzən hormonal pozulmalar da piylənməyə səbəb olur. Mütləq buna da diqqət etmək lazımdır".

Məhsəti Hüseynova sözlərinə belə davam edib: "Bəzən də endokrinoloji problemlər olur. Dediyimiz kimi, bu hormonal, insulin dirənci ola bilər ki, bu halda da piylənməyə səbəb olur. Bir çox hallarda psixoloji vəziyyəti düzgün olmayanda həddindən artıq dayanmadan rejimsiz balanslaşdırılmamış qida qəbulu olur ki, bu da piylənməyə səbəb olur. Bəzən olur ki, qadınlarda, xüsusilə hamiləlikdə və yaxud laktasiya dövründə bir çox hallarda yenə də qida rejimi yaddan çıxır və fərqli



inanclara görə tutaq ki, "laktasiya dövründə süd gətirəcək filan qidanı qəbul elə, hamiləlikdə 2 nəfərin yerinə yeyək" kimi inanclarla daha çox qida qəbulu da piylənməyə səbəb olur".

"Başqa bir səbəb isə stress faktoru, yuxusuzluq və yorğunluqdur. Bu hallarda da yenə düzgün şəkildə qidalanma olmadıqda piylənməyə gətirib çıxarır. Piylənmədən qorunmaq üçün nə etmək lazımdır? Mütləq şəkildə birinci yuxumuzu, fiziki aktivliyimizi və qidalanmamızı balanslı şəkildə həyata keçirməliyik. "Fast-food" qidalardan uzaq durmalı, un və un məmulatlarında miqdarı keçməməliyik. Yaxşı olar ki, buna şirniyyatlar da daxil olaraq tortlar və yaxud paketlənmiş şirniyyat məhsulları, şokolad, peçenyelər və s. daxildir ki, bu məhsullardan uzaq durmaq lazımdır. Qazlı, rəngli içkiləri rasiondan çıxarmaq daha faydalı olar".

"Eyni zamanda, axşam saatlarında yeməyimizə diqqət etməliyik. Bəzən olur ki, gün ərzində az qidalanırlar və yaxud səhər heç qidalanmır, günorta yüngül atışdırmalıq və axşam birdən-birə çox qida qəbulu da piylənməyə səbəb olur. Bu ən təhlükəlisidir. Çünki bu artıq bəzən gözlə görünməyən piylənmə də ola bilər. Bu daxili orqanların piylənməsidir ki, sonradan xəstəliklərə səbəb olur. Mütləq bu hallara da diqqət etmək lazımdır. Daxili orqanların piylənməsi artıq həyati təhlükələrə gətirib çıxarır. Biz mütləq şəkildə piylənməni, ümumiyyətlə, bədənimizin normal çəkisini saxlamaq üçün ideal çəkimizin nə olmağını təxmin etməliyik. Təbii ki, burda biz artıq sümük çəkisini də hesablaya bilərik".

"Daha sonra əsas piylənmə qarında yığılan qarın ətrafı, bel ətrafı yığılan piylənmədir ki, bu da artıq təhlükədən xəbər verir. Mütləq şəkildə biz bilməliyik ki, təxmini burda da bel ətrafı hesablamalarla bilirik ki əgər normadan artıqdırsa, o zaman da yenə bədəndə artıq piylənmənin getdiyinin şahidi oluruq. Bu hallara da diqqət etməliyik. Yəni gözlə görünən amillər də var və daxili orqanlarda təbii ki, bu dediyimiz qidalanma rejimi pozulanda artıq xəstəliklərə səbəb olur. Xəstəliklər də saymaqla bitməz. Buna bütün orqanların funksiyasının azalması, şəkərli diabet, insult, infarkt, ürək - damar xəstəliklərini saysaq, onurğa sütununda problemlər, mərkəzi beyin sisteminin problemləri, yəni piylənmə bir çox xəstəliklərə səbəb olur".

**Ayşən Vəli**

# “Jirinovskinin “ayı xidməti” göstərdiyi gün kimi aydındır”

**Rusiya Dövlət Dumasının deputatı, Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovskinin “Komsomolskaya pravda” radiosunun 30 iyul buraxılışında Azərbaycanın dövlətçiliyinin və rəhbərliyinin ünvanına səsləndirdiyi qərəzli, təhqiramiz fikirləri Azərbaycan ictimaiyyətində haqlı narazılıq doğurmuş və hiddətlə qarşılanmışdır.**



*Əli Hüseynli*
*Milli Məclisin deputatı*

Digər ölkələrə qarşı münasibətdə, xüsusilə də Türkiyə və Azərbaycanla bağlı məsələlərə dair hər zaman qalmaqallı ifadələr işlətməkdən çəkinməyən V.Jirinovski beynəlxalq aləmdə mənfi reputasiyaya malik siyasətçi imicinə malikdir. Onun qeyri-etik və aşağı mədəniyyət göstəricisi olan emosional davranışlarının əslində Rusiyanın Azərbaycanla qarşılıqlı münasibətlərinə və ictimai rəyə zərrə qədər də təsiri yoxdur. Özünü guya Rus xalqının təəssübkeşi və Rusiyanın dövlət maraqlarının müdafiəçisi kimi təqdim etməyə çalışan bu şəxsin təmsil etdiyi dövlətə və xalqa “ayı xidməti” göstərdiyi gün kimi aydındır.

Sözügedən müsahibədə V.Jirinovskinin siyasətçiyə yaraşmayan əda ilə əsləndirdiyi əsassız və mənasız fikirlər Azərbaycan XİN-nin ciddi riaksiyasına səbəb olub. Bununla bağlı Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkilinə nota təqdim olunub. Həmin sənəddə deputat mandatı ilə təmsil olunan bir şəxsin bu davranışının qeyri-etik olmaqla yanaşı, dövlətlərimiz arasında mövcud olan dostluq, strateji tərəfdaşlıq münasibətlərinin ruhuna uyğun olmadığı, habelə bu münasibətlərə zərər gətirilməsinə hesablanmış məsuliyyətsiz və təxribat xarakterli ifadələrin səsləndirilməsinin qəbuledilməz olduğu vurğulanıb.

Bu etirazlardan sonra öz fikirlərini “söz azadlığı” ilə əsaslandırmağa çalışan V.Jirinovski cəmi bir gün sonra Azərbaycan prezidenti İlham Əliyevi həmişə müdrik rəhbər kimi tanıdığını bildirməklə dövlətimizin başçısı barədə əvvəl söylədiklərinin yanlış olduğunu etiraf etməyə məcbur olub.



# “Konstitusiya dəyişikliyi günün tələbi deyil”

“Son günlər bəzi saytlarda, ardınca isə sosial şəbəkələrdə Azərbaycanda bu yaxınlarda referendum keçiriləcəyi, konstitusiyada dəyişiklik ediləcəyi, ardınca isə parlamentin buraxılacağı barəsində xəbərlər dolaşmaqdadır. Bu, müəyyən müzakirələrə səbəb olub. Hesab edirəm ki, bunun heç bir əsası yoxdur. Azərbaycan Konstitusiyasında dəyişiklik cəmisi 5 il bundan əvvəl aparılıb və Azərbaycanda çox mükəmməl effektli bir idarəetmə sistemi yaradılıb”. Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib.

Onun sözlərinə görə, parlament seçkilərinin də vaxtı deyil: “Bu gün parlament seçkilərinin yenidən keçirilməsinə və konstitusiya dəyişikliyinə heç bir lüzum yoxdur. Buna həyati tələb, sosial sifariş mövcud deyil. Bununla belə, şayiələrin yayılması, hesab edirəm ki, heç də təsadüfi deyil. İş burasındadır ki, bu gün Azərbaycan gündəmində duran əsas məsələlər işğaldan azad olunan torpaqların minalardan təmizlənməsi, məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qayıtması, Ermənistanla münasibətlərin yeni səpkidə qurulması, Zəngəzur dəhlizinin açılması məsələləridir. Görünür bu tip məsələlərin gündəmdə əsas yerləri tutması müəyyən dairələrə, bəlkə də xaricdə müəyyən qruplara heç də xoş gəlmir. Ona görə də onlar gündəmi dəyişməyə, Azərbaycan gündəminə bugün şayiələr üzərində qurulan və yaxud da ki, Azərbaycan vətəndaşında çaşqınlıq yaradan müəyyən məsələlərin hallanmasında maraqlıdılar”.

Deputat sözlərinə belə davam edib: “Tamamilə mümkündür ki, Azərbaycanda elə bir sosial bazası olmayan kiçik siyasi qruplar gündəmə gəlmək, Azərbaycan üçün əhəmiyyətli bir fiqur olduğunu yada salmaq istəyirlər. Onların Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasi kursa alternativ və üstün olacaq hər hansı bir proqramları yoxdur və ola da bilməz. Həmçinin, bu gün onların diqqətini çəkən hər hansı bir fəaliyyəti də gözə çarpmır. Bu baxımdan vətəndaşları da çaşdıran və yaxud da ki, şaiyə xarakteri daşıyan məsələlərin dövriyyəyə buraxılması daha çox cəlb edir. Bu tip məsələlər bir qayda olaraq Azərbaycanda ictimai fikri səhv yola yönləndirmək xarakteri daşıyır. Bu tip məsələlər ümumiyyətlə gündəmdə yoxdur. Nə yeni seçkilərin keçirilməsi, nə konstitusiyada dəyişikliklər günün tələbi deyil”.

***Ayşən Vəli***

# YAP Naftalan şəhər təşkilatının X hesabat konfransı keçirilib



Avqustun 4-də Yeni Azərbaycan Partiyası Naftalan şəhər təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Naftalan şəhər təşkilatının sədri Hatəm Qocayev hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, YAP Naftalan şəhər təşkilatının hesabat dövründəki fəaliyyətinin əsas istiqamətlərindən biri ölkə Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyevin gördüyü işlərin təbliğindən və cəmiyyətə çatdırılmasından ibarətdir: “Bu mənada, şəhər təşkilatı tərəfindən keçirilən bir çox tədbirlər məhz bu məqsədə həsr olunmuş, dövlət başçısının imzaladığı fərman və sərəncamların, keçirdiyi görüşlərin, qəbulların, səfərlərin mahiyyətinin ictimaiyyətə, partiya üzvlərinə çatdırılması işi uğurla həyata keçirilmişdir. Təşkilatımızın IX konfransından keçən dövr ərzində Naftalan şəhərində ictimai-siyasi vəziyyət, quruculuq işləri, möhtərəm Prezidentimiz İlham Əliyevin regionların hərtərəfli inkşafına yönəlmiş iqtisadi strategiyasının şəhərdə uğurla yerinə yetrilməsi bunun əyani sübutudur.”





Hatəm Qocayev qeyd edib ki, hesabat dövründə təşkilatımız sosial bazasını xeyli möhkəmləndirmiş və partiya sıralarının daha da artırılması istiqamətində kifayət qədər işlər görülüb. Partiya sıralarına 202 nəfər yeni üzv qəbul olunub və hal-hazırda 36 ərazi ilk partiya təşkilatında 1291 nəfər partiya üzvü fəaliyyət göstərir.



Sonra YAP Naftalan şəhər təşkilatı Nəzarət-Təftiş Komissiyasının sədri Anar Əsədzadənin hesabatı dinlənilib.

Müzakirələr zamanı Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novuzov, YAP Naftalan şəhər təşkilatı Gənclər Birliyinin sədr əvəzi İsa İsayev, Naftalan şəhər Təhsil şöbəsinin müdiri, ərazi partiya təşkilatının sədri Rəna Dəmirova, Naftalan şəhər İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbin direktoru, ərazi partiya təşkilatının sədri Faiq Rüstəmov, Naftalan şəhər Gənclər və İdman İdarəsinin rəis müavini, ərazi partiya təşkilatının sədr müavini Elman Şərəfxanov hesabat dövrü ərzində görülən işlərdən bəhs ediblər.



Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, ulu öndər Heydər Əliyevin dediyi kimi, YAP dünənin, bu günün və gələcəyin partiyasıdır. Onun sözlərinə görə, fəaliyyət göstərdiyi illər ərzində Yeni Azərbaycan Partiyası öz proqramında nəzərdə tutulan vəzifələri yerinə yetirib. Bu baxımdan, VII qurultayda qəbul olunmuş qərarlar, partiyamızın Sədri, Prezident İlham Əliyevin qurultayda qarşıya qoyduğu tövsiyə və tapşırıqlar hər bir partiya üzvü üçün yeni vəzifələr müəyyənləşdirir.





X hesabat konfransının keçirilməsi münasibətilə YAP Naftalan şəhər təşkilatının üzvlərini təbrik edən Əhliman Tağıyev təşkilatın gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Naftalan şəhər təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Fuad Qəhrəmanlı yoldaşını, qızını işgəncələrə məruz qoyanda niyə demirdiniz ki, Əli Kərimli günahkardır?

Bu gün sosial şəbəkələrdə cəbhəçi və özünü feminist adlandıran bir qrup trol baş vermiş cinayət hadisəsini siyasiləşdirməyə, polisi ictimai qınaq hədəfinə gətirməyə çalışıblar. Onlar qətlə yetirilmiş qadının qatilini hədəfə almaqdansa, polisin üzərinə hücum etməyi üstün tutublar. Bu da əlbəttə ki, prosesin eyni mərkəzdən idarə olunduğunu və polisin bilərəkdən, məqsədli şəkildə hədəf göstərildiyini sübut etmiş olur...




Əvvala onu deyək ki, qadın qətlinin siyasiləşdirilməsi bir sıra beynəlxalq təşkilatların trendidir və milli dövlətlərə təzyiq alətidir. Onlar bu cür məqsədli olaraq siyasiləşdirilmiş hadisələri hesabatlarına salır, sonra da maraqlarını təmin etmək üçün təzyiq rıçaqına çevirirlər. Bunun üçün Azərbaycan kimi ölkələrdə “feminist” maskası altında gizlənmiş agentləri də olur. Məsələn, ölkəmizdə feministlərin “maması” Xədicə İsmayıl, böyük bacıları Nərmin Şahmarzadədir. Onu da qeyd edək ki, bu cür siyasi hücumlara görə “feministlərə” külli miqdarda vəsait də ayrılır...

İkincisi, polisin hədəfə alınması birbaşa dövlətin onurğa sütutunu vurmaq məqsədindən irəli gəlir. Polisi bilərəkdən qadın qətllərində günahlandırmaqla həm nüfuzdan salmaq, həm də ictimai qınaq obyektinə çevirmək niyyətindədirlər. Lakin hər kəs yaxşı bilir ki, ailə-məişət zəminində baş verən cinayətlərin polislə heç bir əlaqəsi yoxdur. Polisə olan hücumlar sadəcə hüquq-mühafizə orqanlarının zəiflədilməsi məqsədinə xidmət edir...

Üçüncüsü, bu gün qadın qətllərinin siyasiləşdirilməsindən cəbhəçi trollar da yazıblar. Məsələn, trolbaşı Əli Kərimlinin müavini Seymur Həzi, Məmməd İbrahim və başqaları “feminist” qiyafəsində polisə hücum ediblər. Görəsən, bu cəbhəçi trollar qadın qətlindən, işgəncədən yazanda heç utanmadılarmı? Yaxşı, deyək ki, küyə qoşuldular. Heç olmasa trolbaşı Əli Kərimlinin müavini olmuş Fuad Qəhrəmanlının həyat yoldaşının barmaqlarını, qızının dizini sındırmasını xatırlayardılar. Elə “feministlərə” də aiddir bu məsələ. Niyə Fuad Qəhrəmanlı qadınlara işgəncə verəndə, qondarma Milli Şuranın üzvü Vidadi Mirkamal qızı yaşında qadınlara qarşı cinsi zorakılıq edəndə susurdular? Niyə bütün bunlara görə trolbaşı Əli Kərimlini mühakimə etmirdilər? Nə üçün onun istefasını tələb etmirdilər? Demək ki, radikallar kimi feministlər də ikiüzlüdür, saxtadır. Bu səbəbdən də, bundan sonra bir daha qadın qətllərini siyasiləşdirəndə, polisi hədəf seçəndə dediklərimizi də xatırlayın...

***Ramil Vəlibəyov***

# Dostluğa və qardaşlığa söykənən Azərbaycan-Türkiyə həmrəyliyi




Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları son zamanların hadisələrində, ən çətin məqamlarda özünü bir daha doğrultmuş oldu. Azərbaycanın 44 günlük Vətən müharibəsinin od püskürən günlərində Türkiyə dost ölkə olaraq, Azərbaycanla həmrəylik nümayiş etdirdi. Dərdimizə, kədərimizə şərik oldu. Müharibənin ilk günündən sonuna qədər "Can Azərbaycan" deyib, yanımızdan bir an belə kənarlaşmadı. Mənəvi dəstəyi, gücü ilə dünyaya səc saldı ki, Türkiyə istənilən vəziyyətdə qardaş dediyi ölkənin - Azərbaycanın yanındadır. Belə də oldu. Qələbə sevincimizi birgə yaşadıq və bu gün Azərbaycanın işğaldan azad olunan ərazilərində Azərbaycan və Türkiyə bayraqları qoşa dalğalanır. Bundan fərəhləndirici və qürurverici nə ola bilər ki? Bu gün Azərbaycan da Türkiyəyə qarşı olan sevgisi ilə onun yanındadır. Türkiyə meşələrində yanğın başlanan andan Azərbaycan Türkiyəyə həmrəyliyini göstərdi.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubunda qardaş Türkiyənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları və onların törətdiyi fəsadlar barədə xəbərin bizi son dərəcə kədərləndirdiyini bildirib. "Sizin rəhbərliyiniz altında hökumətinizin atdığı qətiyyətli addımlar sayəsində əzmli və mübariz Türkiyə xalqı bu fəlakətin öhdəsindən tezliklə gələcəkdir", - deyən dövlət başçısı bildirib ki, Azərbaycan hökuməti və xalqı hər zaman olduğu kimi bu gün də qardaş Türkiyə xalqı ilə həmrəydir və onun yanındadır: "Dağıdıcı yanğınlar nəticəsində həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm".









Qardaş Türkiyədə baş verən meşə yanğınları Azərbaycan xalqında böyük narahatçılıq doğurub. Bu, belə də olmalıdır. Dost dar gündə sınanar, deyiblər. Əlbəttə ki, təbiətə, canlılara qarşı etinasız yanaşmaq insanlıqdan kənardır. Belə bir məqamda bir məsəli xatırlatmaq yerinə düşər: "Meşə çoxdur tələf etmə, azdırsa, qoru, yoxdursa, ək". Axı, təbiət bizim bir parçamızdır. Meşə hər şeydən əvvəl, təmiz hava, su deməkdir. Meşələri elə bu səbəbdən, bəşəriyyətin "ağ ciyərləri" adlandırırlar. Bu ağ ciyərlər, insandan fərqli olaraq, oksigen udub, karbon qazı buraxmır. Karbon qazını udub, insan üçün zəruri olan oksigeni buraxır. Meşə yanğınları həm də meşə təsərrüfatına böyük ziyan vurmaq deməkdir. Burada çoxlu sayda ağaclar, heyvanat aləmi məhv olur. Dilsiz-ağızsız bu canlılara qarşı törədilən yanğın vəhşilik, terrordur. Təəssüf hissi ilə qeyd etməliyik ki, güclü yanğınlar nəticəsində insan itkisinə də təsadüf edilib. İnsanların evi-ocağı külə dönüb, evsiz-eşiksiz qalıb, infrastruktur sıradan çıxıb.



Belə bir vəziyyətdə Azərbaycanın Türkiyənin yanında olması qardaşlığa söykənir. Azərbaycan Türkiyəni bu çətin zamanında ondan qardaş əlini əsirgəməyib. Meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Türkiyəyə yardım dəstələri göndərilib. Dövlət başçısının tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da Türkiyəyə yola salınıb.

Daha sonra isə avqustun 1-də FHN-in daha bir yanğın-xilasetmə qrupu Türkiyəyə yola salınıb. İkinci qrupa bir helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, bir təcili tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedici daxildir. FHN-in yanğınsöndürmə əməkdaşlarından, hava nəqliyyatı və texnikadan ibarət qüvvələri Türkiyədəki meşə yanğınlarına qarşı mübarizədə fəallıq göstərirlər. Yanğınlar zamanı həmyerlilərimizin fədakarlığı türk qardaşlarımız tərəfindən rəğbətlə qarşılanıb. yanğınlar zamanı yanan evlərdən Türkiyə bayraqlarının çıxarılması da diqqəti çəkib. Azərbaycanlı yanğın söndürənlər əsl qardaşlıq, ərənlik nümayiş etdiriblər. Marmarisdə yanan evdən Türkiyə bayrağını çıxaran Fövqəladə Hallar Nazirliyinin əməkdaşı Kamil Dünyamalıyev yalnız bayrağı xilas edə bildiyini deyib: "Evə daxil oldum, baxdım ki, insan yoxdur. Bayrağı gördüm və özümlə götürdüm. İnsan necə önəmlidirsə, bayraq da o qədər önəmlidir. Son canımıza qədər Türkiyənin yanındayıq".

Digər yanğınsöndürənimiz isə Tural Məmmədov həmkaranının nümunəvi addımını təkrarlayıb: "Türkiyə bayrağı bizim bayraqdır. Azərbaycan, yaxud Türkiyə bayrağı, heç bir fərqi yoxdur". Bu, hər şeydən uca olan bayrağa münasibətdir.

Türkiyədə tüğyan edən meşə yanğınlarında azərbaycanlıların can yandırması qardaşlıq, bir can olmağımızın rəmzidir. Türkiyəli qardaşlarımızın Azərbaycana qarşı münasibəti də qürurvericidir. Yerli əhali tərəfindən Azərbaycan yanğınsöndürənlərinin göstərdiyi bu fədakarlıq yüksək dəyərləndirilir.Sosial media hesabı vasitəsilə fikirlərini ifadə edən Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədəki meşə yanğınları ilə mübarizəyə dəstək verən, başsağlığı göndərən, kömək etməyə hazır olduqlarını bildirən və yardım göndərən bütün dost ölkələrə və təşkilatlara milləti adından təşəkkür edib. Bu çətin dövrü ən qısa zamanda geridə qoyacaqlarını bildirən Rəcəb Tayyib Ərdoğan bildirib: "İlk andan etibarən göstərdikləri dəstəyə görə, xüsusilə, Azərbaycan Prezidentinə, əziz dostum İlham Əliyevə, Rusiya Prezidenti Vladimir Putinə və İspaniyanın Baş naziri Pedro Sançesə ölkəm adından təşəkkürümü bildirirəm. Güclü həmrəyliyinə görə qonşumuz İran Prezidenti İbrahim Rəisiyə, Qətər Əmiri Şeyx Təmimə, Xorvatiya Prezidenti Zoran Milanoviçə və Ukrayna Prezidenti Vladimir Zelenskiyə təşəkkürümü bildirirəm".

Son günün reallıqları, sınağı bizə bir daha deməyə əsas verir ki, iki qardaş dövlətin dostluğu əbədi və sarsılmazdır. Tarixən, bu belə olub və olacaqdır.

***Zümrüd BAYRAMOVA***

# Bürokratik əngəlləri və mümkün korrupsiyanı aradan qaldıran xidmət

## Dünya ölkələrinin bəhrələndiyi Azərbaycan modeli olan “ASAN xidmət” mərkəzlərinin sayı 21-ə çatıb







**Ölkəmizdə xoşbəxt gələcəyimizə hesablanılan iri layihələr sırasında “ASAN Xidmət”in özünəməxsus yeri var. Əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıq olan “ASAN xidmət” mərkəzləri öz fəaliyyətini yüksək standartlar çərçivəsində qurur və inkişaf etdirir. Məhz bunun nəticəsidir ki, “ASAN xidmət” təcrübəsinin özünəməxsus hüquqi strukturu bir çox beynəlxalq tərəfdaşlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilir.**

“ASAN xidmət”in təkcə Azərbaycanda deyil, digər ölkələrdə də tətbiqi genişlənir. Bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldıran “ASAN Xidmət” dövlət başçısının bildirdiyi kimi, doğrudan da, ictimai xidmətlər, ümumiyyətlə, ictimai əlaqələr sahəsində bir inqilab olub: “Bu gün dünyanın aparıcı maliyyə qurumları bizim təcrübəmizi çox yüksək qiymətləndirir və tövsiyə edirlər ki, bu təcrübə başqa ölkələrdə də tətbiq olunsun. Azərbaycan indi intellektual məhsulları həm yaradır, həm də ixrac edir. Bu, doğrudan da, çox böyük hadisədir”.

Azərbaycanın bu modelindən artıq dünya ölkələri bəhrələnir. Bir sıra beynəlxalq tərəfdaşlarla, o cümlədən Avropa İttifaqı ilə əməkdaşlığı qeyd olunmalıdır. Əfqanıstan ilə dövlət xidmətlərinin göstərilməsinin mütərəqqi mexanizminin yaradılmasına dair imzalanan Anlaşma Memorandumuna əsasən, artıq Əfqanıstanda eyni adlı qurum təsis edilib. Beynəlxalq qabaqcıl təcrübə kimi, bu gün “ASAN Xidmət”in fəaliyyəti Avropa Parlamenti, Böyük Britaniya parlamenti, Fransa, Almaniya və digər ölkələrdə yüksək dəyərləndirilir. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə də əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

### “BİZ “ASAN XİDMƏT”İ MƏHZ ONA GÖRƏ YARATDIQ Kİ, BU, ASAN OLSUN, BU XİDMƏT RAHAT OLSUN, NÖVBƏ OLMASIN, HEÇ BİR POZUNTU OLMASIN, ŞƏFFAF OLSUN”

Həqiqətən də, “ASAN Xidmət” dünyaya nümunə olan modeldir. Dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub. Bu gün ölkəmizdə mərkəzləri sayı artmaqdadır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdi ki, Mənə verilən məlumata görə, Bakı şəhərində də yeni mərkəzlərin tikintisinə ehtiyac var: “Çünki “ASAN xidmət”in funksiyalarının həcmi və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Biz “ASAN xidmət”i məhz ona görə yaratdıq ki, bu, asan olsun, bu xidmət rahat olsun, növbə olmasın, heç bir pozuntu olmasın, şəffaf olsun. Buna nail olmuşuq. “ASAN xidmət”in bəyənmə əmsalı 100 faizə yaxındır. Ancaq nəzərə alsaq ki, funksiya genişlənir və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Ona görə göstəriş vermişəm ki, - ilkin vəsait də ayrıldı, - Bakı şəhərində əlavə iki “ASAN xidmət” mərkəzi yaradılsın və beləliklə, onların sayı 22-yə çatacaq”. Bu günlərdə artıq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə daha bir “ASAN xidmət”in 6 saylı Bakı “ASAN xidmət” mərkəzinin açılışı oldu. Bu, artıq ölkə üzrə 21-ci olan “ASAN xidmət” mərkəzidir.

Qeyd edək ki, dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Azərbaycan Prezidenti İlham Əliyevin “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Fərmanı bu sahədə böyük əhəmiyyət daşıyır. Bu Fərman ölkəmizdə elektron hökumətin inkişafında, eləcə də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin olunub və bu proses sürətlə davam edir.

### “ASAN XİDMƏT” CƏMİYYƏT ÜÇÜN ÇOX VACİB OLAN BİR İNSTİTUSİONAL MƏRKƏZƏ ÇEVRİLİB

Dövlətimizin başçısının təşəbbüsü ilə yaradılan Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində “ASAN xidmət” mərkəzlərinin yaradılması bürokratik əngəllərin və mümkün korrupsiya hallarının aradan qaldırılmasında təqdirəlayiqdir.Yeni istifadəyə verilən 6 saylı Mərkəzdə müxtəlif dövlət orqanları, özəl şirkətlər və kommunal xidmət qurumları qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara ümumilikdə 320-dən çox xidmət göstərəcək. Dövlət orqanlarının bu mərkəzdə fəaliyyət göstərəcək işçiləri də daxil olmaqla ümumilikdə 230 əməkdaş və 85 könüllü çalışacaq. Vurğulayaq ki, onların mütləq əksəriyyəti şəhid ailələrinin üzvləri və qazilərdən, Vətən müharibəsinin iştirakçılarından ibarətdir.

Bu gün artıq ölkəmizdə 21 “ASAN xidmət” mərkəzi fəaliyyətdədir. Onlarda 6-sı Bakıda, digərləri isə bölgələrdədir. Regionlarda 10 səyyar “ASAN xidmət” avtobusu və səyyar “ASAN qatar” vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi də davam etdirilir. Bu gün “ASAN xidmət” nəinki ictimai xidmətlər sahəsində, ümumiyyətlə, cəmiyyət üçün çox vacib olan bir institusional mərkəz olaraq dəyərləndirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Özlərini dənizə atmaq istəyən ermənilər...

**İndi yenidən durub bunları xatırladaraq, Nikolu alçaltmaqda məqsədiniz nədir? Deyirsiniz ki, Ermənistan iqtisadiyyatının əvvəlki inkişafındakı az-çox tərəqqinin də Nikolla heç bir əlaqəsi olmayıb. Sadəcə, Karen Karapetyan hökumətinin qoyduğu “müsbət inkişaf” idi ki, o da “sayrışıb” keçdi.**

Bu gün isə yeni mandat alan Paşinyan komandasının Ermənistanın ümumi dirçəlişini nümayiş etdirmək üçün yenidən rəqəmlərlə manipulyativ oyunlara başladığını deyirsiniz. Hətta Nikolun bu ilin birinci yarısında ölkədəki 5 faizlik iqtisadi artım barədə dediklərini də yalan adlandırırsınız. Deyirsiniz ki, bu 2020 -ci ilin aşağı bazası, yüksək inflyasiya və metalların əlverişli qiymətləri ilə bağlıdır. Dediyinizdən belə başa düşülür ki, Nikol ölkədə heç bir dirçəliş-zad eləməyib?

Sizin deməyinizdən belə çıxır ki, Nikolun bu ilin sonu üçün olacaq 7.4 faizlik iqtisadi tərəqqiyə də inanmayaq? Hələ bir, biz bir yana, hətta Nikoldan belə utanmadan, onun erməni iqtisadi inkişafı barədə səsləndirdiyi gözəl qiymətləndirmələri “bir qədər erkən görünən nikbinlik” kimi qələmə verməyə çalışırsınız. Üstəlik, Paşinyanın 3 illik hakimiyyəti dövründə Ermənistan iqtisadiyyatının orta illik artımının cəmi-cümlətanı 1,8 faiz artdığını deyirsiniz. Hələ aranızda, utanıbqızarmadan bu rəqəmin də reallığına şübhə edənlər var.



Paşinyan hələ üç il əvvəl siz ermənilərə demişdi, ...indi onları yenidən təkrar etməyə nə hacət? Amma məcbur edirsiniz deyə, yenə təkrar edir, “...erməni iqtisadiyyatı yaxınlarda sıçrayışlı inkişafa malik olacaq ki, bu da kütləvi iş yerlərinin açılmasına, pensiyaların artmasına və yoxsulluğun azalmasına səbəb olacaq”. Əgər bunu, doğrudan da, Nikol deyirsə, deməli, olacaq.

...Adam erməni olanda da, bu qədər azğun olmaz axı. İndi də başlamısınız ki, bu günə qədər mövcud olan Paşinyan hökuməti dövründə qurulacaq yeni, az və ya çox nəzərə çarpan bir müəssisənin açılmasını görmədiyinizi deyirsiniz. Guya Nikol ölkədə pensiyaları artırmayıb. Pensiyaçılardan Nikola olan etimadlarını itiriblər və başlayıblar yavaş-yavaş ölməyə... Sonra da deyirsiniz ki, ölkədəki yoxsulluğun azaldılmasına gəlincə, inflyasiya şəraitində bu barədə danışmaq da alçaqlıqdan başqa bir şey deyil.

...Sonra da baxıb, amma hələ ki, anlamayanlara deyirsiniz ki, baxın, Ermənistanın bütün əsas sahələrində fəaliyyətini uğursuz edən hakimiyyət orqanları yenidən ölkəni nəzarətə götürüblər...

...Hə...burada əsas problem bilirsiniz nədir, baxıb başa düşməyənlərə verdiyiniz məsləhət. Deyirsiniz ki, daha bezmişik, özümüzü az qala dənizə atmaq istəyirik.

...Ayə, birdən, ermənidir də, doğrudan da, özünü dənizə atmaq istədi, Ermənistanda da dəniz yox...

Belə görünür ki, Tanrı “erməni qətiyyətinə” bələd olduğundan onların “dənizli bir dövlət” olmasını məsləhət bilməyib.

***Ağasəf Babayev***

# İordaniya qəzeti: “Azad edilmiş Şuşa öz sakinlərini gözləyir”



İordaniyanın “Əl Ənbat” qəzetində Qarabağa səfər etmiş iordaniyalı jurnalist Nemət əl-Xuranın “Azad edilmiş Şuşa öz sakinlərini gözləyir” sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Qarabağın incisi olan Şuşanın azad edilməsi Azərbaycan Ordusunun ən mühüm və şanlı Qələbəsi kimi dəyərləndirilir. Müəllif qeyd edir ki, ermənilərin bu şəhərin əsl sakinləri olan azərbaycanlıların tarixi-mədəni irsini məhv etməsi və onların izini silməyə çalışmasına baxmayaraq, ədalət öz yerini tapdı. İndi Şuşa qədim sakinlərinin yolunu gözləyir.

Yazıda diqqətə çatdırılır ki, Azərbaycan hökuməti Şuşada tarixi-mədəniyyət abidələrini, o cümlədən şəhərin yaxınlığında yerləşən alban monastırının bərpasına başlayıb. Xarici jurnalistləri müşayiət edən Azərbaycan XİN-in nümayəndəsi qeyd edib ki, azərbaycanlılar bütün dinlərə və onlara mənsub olan tarixi abidələrə və məbədlərə hörmətlə yanaşırlar.

İordaniyalı jurnalist Şuşanın ermənilər tərəfindən dağıdılmış qədim qala divarlarının, digər tarixi abidələrin fotoşəkillərini təqdim edib. O, həmçinin 44 günlük müharibə zamanı Ermənistanın raket hücumlarına məruz qalan Gəncə şəhərindən də bəhs edib. Müəllif bildirib ki, həmin hücumlar nəticəsində 26 dinc sakin, o cümlədən 6 uşaq həlak olub, erməni silahlı qüvvələri 5 uşaq bağçası, 5 məktəb və 7 xəstəxanaya raket zərbələri endiriblər. Ən dəhşətlisi isə odur ki, həlak olanların arasında 11 aylıq bir körpə var. Hazırda humanitar fəlakətin miqyasını görmək üçün dağıdılmış bu əraziyə ziyarətçilər və turistlər gəlirlər. “Ermənistan ordusunun dinc sakinləri, o cümlədən uşaqları hədəfə alması, onları qətlə yetirməsi və yaralaması dəhşətvericidir. Bu dəhşəti Gəncədə raket hücumuna məruz qalmış yerlərdə bütün reallığı ilə hiss edirsən”, - deyə iordaniyalı jurnalist məqalənin sonunda yazıb.

# "Sərhədsiz Reportyorlar"ın bitib-tükənməyən qərəzi

*Yaxud Menardın "sərhədsiz təxribatçı"ları erməni lobbisinin maşası rolunda*

**Hər zaman Azərbaycana qarşı məkrli və qərəzli mövqeyilə seçilən "Sərhədsiz Reportyorlar" növbəti dəfə şər və böhtanla dolu hesabatını yayıb. Təşkilat verilən sifariş əsasında Azərbaycanda söz və mətbuat azadlığı ilə bağlı qərəzli dəyərləndirmələr aparıb, ölkəmizi son sıralarda göstərib. Məqsəd belə vasitələrlə Azərbaycanı gözdən salmaq, onun beynəlxalq müstəvidəki imicini ləkələməkdir.**




Hesabata diqqət yetirdik də isə bir daha əmin olursan ki, orada yer alan qərəzli məqamlar Azərbaycan gerçəkliyini ifadə etmir, çünki ölkəmizdə söz və mətbuat azadlığı tam təmin olunub. Bu cür bəyanatlar Azərbaycanda söz və mətbuat azadlığının olduğuna heç bir şübhə yarada bilməz. Çünki ölkəmizdə intellektual-mədəni cəmiyyət formalaşıb və hansısa qeyri-hökumət təşkilatının Azərbaycanda ictimai rəyə təsir etməsi mümkün deyil. Digər tərəfdən, Azərbaycanın çox güclü media kontingenti var və ictimaiyyətimiz hansı transmilli medianın və ya qeyri-hökumət təşkilatının nəyə, kimlərə xidmət etdiyini dərk edir.

Azərbaycan ictimaiyyəti gözəl bilir ki, Fransanın Langedok vilayətində yerləşən Bezye şəhərinin meri Rober Menard hələ bu vəzifəyə gələnədək "Sərhədsiz Reportyorlar" təşkilatının yaradıcısı və baş direktoru kimi məşhur idi. Fransalı jurnalist Nicolas Poincare onu "sərhədsiz təxribatçı" adlandırır və yazır: "Bələdiyyə polisini silahlandırmaq, pəncərələrdən paltar asanları cəzalandırmaq, multikultur Fransanı rədd etmək. Sərhədsiz reportyorların bu keçmiş rəhbəri soldan-sağa təxribatlarla məşğuldur".

Fransız jurnalistlərin təxribatçı adlandırdığı Menard Azərbaycanda da müəyyən qədər tanınır. Xüsusilə vaxtilə borca düşən, yaxud burnu qanayan bəzi jurnalistlərimiz fransızların sərhədsiz provakatoruna pənah aparırdı. 2006-cı ilə qədər "Sərhədsiz Reportyorlar"ın baş direktorunu Azərbaycanda tez-tez görmək mümkün idi. Həmin vaxtdan sonra isə onun ayağı Bakıdan kəsildi. Bu səbəbdən də "Sərhədsiz Reportyorlar" təşkilatının hər il yaydığı hesabatlarda Azərbaycanın adı mütləq şəkildə sonuncu sıralara salınır. Hətta Afrikanın hansısa ölkəsinin "bəxtinə" daha yaxşı yerlər düşür. Təbii ki, bu, reallıqdan deyil, Menardın, elə onun vaxtilə rəhbərlik etdiyi təşkilatın Azərbaycana, daha doğrusu, müsəlman ölkəsi olan Azərbaycana münasibətindən irəli gələn məsələdir. Bu təşkilatın istər Menardın rəhbərliyi dövründə, istərsə Azərbaycanla bağlı irəli sürdüyü iddialar məsələyə "fransız qalmaq" kimi bir şeydir. Bütün hesabatlarda Robert Menardın dəst-xətti aydın sezilir. Əsas məsələ isə Menardın həyat prinsipinə çevirdiyi və özündən sonra "Sərhsiz Reportyorlar" üçün qoyduğu islamofob və anti-Azərbaycan ənənəsinin səbəbləridir.

Eyni zamanda, bu qurum Ermənistanda baş verənlərə bir cür, Azərbaycanda baş verənlərə başqa cür yanaşaraq ikili standartlar nümayiş etdirir. Bu gün Ermənistan media azadlığı ilə bağlı ciddi problem yaşayan ölkələr sırasında yer alır. Məsələn, Ermənistan Jurnalistlər Birliyinin üzvü, televiziya şərhçisi Nairi Oxikyan öz ölkəsində təqib edilir. Ermənistan Jurnalistlər Birliyi bəyan edir ki, 29 iyul 2021-ci ildə jurnalist Milli Təhlükəsizlik Xidmətinə dindirilməyə gətirilib. Dindirilmə zamanı jurnalistin smartfonu müsadirə edilib. Nairi Oxikyan İkinci Qarabağ müharibəsindən bəhs edən sənədli film çəkdikdən sonra təqib edilməyə başlayıb. Jurnalist öz filmində Ermənistan hakimiyyətini tənqid edib. Paradoksal olaraq, erməni telejurnalistin peşə fəaliyyətinə görə təqib edilməsi beynəlxalq təşkilatların, xüsusən də Azərbaycanda söz azadlığının vəziyyətini tənqid etməsi ilə tanınan Fransanın "Sərhədsiz Reportyorlar" təşkilatının "gözündən qaçıb". Ermənistan Jurnalistlər Birliyi Ombudsmanın ofisini, eləcə də beynəlxalq təşkilatları hakimiyyətin qanunsuz hərəkətlərini qiymətləndirməyə çağırıb. Lakin buna məhəl qoyan yoxdur.

O da faktdır ki, 1985-ci ildə Fransada (Monpelye) yaradılan "Sərhədsiz Reportyorlar"ın büdcəsinin bir hissəsini Fransa hökuməti, bir hissəsini isə ABŞ hökumətinin siyasətini yürüdən təşkilatlar ödəyirlər. Məsələn, ermənipərəst Sorosun Açıq Cəmiyyət İnstitutu və Azərbaycanda kifayət qədər tanınan NED kimi (National Endowment for Democracy). Yada salaq ki, NED 8 il öncə Azərbaycanda radikal siyasi qruplaşmaları gizli maliyyələşdirməsi ilə böyük qalmaqala səbəb olmuşdu. "Sərhədsiz Reportyorlar"ın NED-dən pul alması gizli məlumat deyil, bunu təşkilatı yaradan və 20 il ərzində baş katibi olan Menard özu da açıq etiraf edib. NED-in və "Sərhədsiz Reportyorlar"ın fəaliyyəti arasında belə bir bağlılığı görmək çətin deyil: NED hansı ölkədə müxalifəti maliyyələşdirirsə, "Sərhədsiz Reportyorlar" da həmin ölkədə söz azadlığını pisləyir. Bu qurum bir növ NED-in jurnalistikaya uzantısıdır. Onun nəzərində "söz azadlığı" - NED-in maliyyələşdirdiyi radikal qruplara meydan vermək deməkdir. Bu olmayan ölkədə söz azadlığı da yox sayılır.

***Sevinc Azadi***

## "Rus sülhməramlıları artsaxda müvəqqəti deyil, daimi qalmalıdır"



"Bu bölgə elədir ki, biz burada təkbaşına təhlükəsizlik və əmin-amanlığımızı təmin edə bilmərik. Əgər vaxtında rus qoşunları bölgəyə girməsəydi, onda taleyimiz başqa cür olacaqdı. Ona görə də, Rusiya qoşunlarının buradakı iştirakı müvəqqəti deyil, daimi olmalıdır". Deməli, Araikin dediyindən belə başa düşülür ki, yəni ruslar buralardan getmək istəsələr ermənilər "erməni məğrurluğunu" 5-10 dəqiqəlik unudub onların ayaqlarına düşməlidirlər ki "...yalvarırıq, getməyin, qalın".

Qeyd edim ki, bunu 44 günlük müharibədən əvvəl "xoruz kimi" müharibə başlayacağı təqdirdə azərbaycanlılara 1994-cü ili yaşadacaqlarını, müharibədən sonra isə "ütülmüş cücə" kimi aman diləyən Araik Arutyunyan Ağdərədə qalan 5-10 erməni ilə görüşərkən bildirib. Maraqlıdır ki, uduzduqları müharibə və müharibədən sonra ermənilər arasında müzakirə olunan xəyanət mövzusuna toxunan Arutyunyan bu məfhumun "qəhrəman erməni" xalqına yad olduğu üçün bu sözü ağızlarına almamağı məsləhət görüb(?).

Arutyunyan məğlub olmalarında heç bir xəyanət və xəyanətçidən söhbət getmədiyini, sadəcə olaraq "qəhrəman ermənilərin" Azərbaycan Ordusu ilə yox, "dünya ordusu" ilə vuruşduğunu bildirib.

Yenidən ermənilərə təsəlli verib, onları buralardan qaçmamağa çağıran Arutyunyan, məsləhət verdiyi ermənilərin artıq onunla bağlı bəzi məlumatlara, məsələn, Rusiyada, dəqiq Moskvada özünə ev və hotel aldığı barədə məlumatlı olduqlarını, yəqin ki, bilməmiş olmaz.

***Ağasəf Babayev***



Zərdüşt Quluzadə

# Dövlətlər niyə var?

**İnsanların özünə lider tapıb dövlət qurmağı çox uzun müddət olub. Yəni insanların bu dövlət quruluşlarına həqiqətən ehtiyacı olub. Bu prosesə Jan Jak Russo kimi siyasi fəlsəfəçilər ictimai müqavilə adı da verib. Belə ki, ilk dövlətlər mağaralardan idarə olunurdusa, indi bu prosesi qanunverici və icraedici orqanlar əvəz edir. İnsanlıq min illərdir ki, idarə olunur. İdarə etmək və tabe olmaq hissləri genlərinə hopub. İdarə edən və idarə olunan olmaq isə sadəcə gücdən asılıdır. Bu, min il əvvəl də belə idi, indi də.**

Belə ki, istənilən üsulla təklif edilmiş anarxizm heç vaxt bəşəri ola bilməz. Anarxizmi sadəcə onu seçən bir qrup insan yaşaya bilər. Çünki dünyamızda özü barədə qərar verə bilməyən insanlar da var. Digər tərəfdən idarə etmək həvəsi ilə alışıb yanan siyasət qurdları da mövcuddur. Dünya illərdir kapitalist sənayenin ağuşundadır. Kapitalizm çoxlu acı talehlərə yol açsa da iqtisadiyyatı artıq onsuz düşünmək mümkün deyil.

Bütün bu şərtlərə görə rahatlıqla demək olar ki, azad olmağın ən məntiqli yolu güclü olmaqdır. Nəzərə alsaq ki, güclü olmaq da öz ardınca idarə etmək kimi bir məsuliyyət gətirir, bu da azadlığın pozulması deməkdir. Belə ki, məsuliyyət azadlığa birbaşa ziddir. Deməli günümüzdə güclü insanlar belə tamamilə azad deyil. Buna gücün gətirdiyi əsarət adı da vermək olar.

Liberalizm və ona formal olaraq oxşar olan bütün quruluşlar idarə etməyə və idarə olunmağa hesablanıb. Bu cəhətdən ona daha mülayim və daha demokratik idarəetmə üsulu da demək olar. Beləliklə hər bir siyasi nəzəriyyəçi əmindir ki, ən qüsursuz demokratiya belə tamamilə azad olmaq istəyən fərdlərə yol açmır.

### Azərbaycanda ilk dövlət

Azərbaycan xalqı, eyni zamanda dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır. Azərbaycan xalqı təqribən 5 min illik dövlətçilik tarixinə malikdir. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq Urmiya hövzəsində yaranmışdı. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar. Həmin dövrdə Azərbaycanda Dəclə və Fərat vadilərində yerləşən və dünya tarixində dərin iz qoymuş qədim Şumer, Akkard və Aşşur (Assuriya) dövlətləri, habelə Kiçik Asiyadakı Het dövləti arasında sıx qarşılıqlı əlaqələr vardı.

15-18 ci əsrlər ərzində mövcud olmuş Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi və Əfşarlar dövlətləri kifayət qədər geniş ərazilər fəth edərək dövlətçilik ənənələrimizi möhkəmlətmişdir. Nadir Şah Əfşar öz ordusu ilə hətta Hindistana da yürüş etmişdir. Müsəlman-Türk mədəniyyətinə mənsub olan bu 4 sülalənin dövründə torpaqlarımız ən geniş sərhədlərə malik idi.

Çar Rusiyası, daha sonra SSRİ kimi dövlətərin işğalına məruz qalaraq dövlətçilik ənənəmizdən uzaq qalsaq da Sovet işğalından əvvəl, 1918-ci ildə qısa da olsa Azərbaycan Xalq Cümhuriyyətini quraraq demokratik cəhətdən nümunəvi hakimiyyət təşkil etmişdik. Elə həmin dövlətin izindən gedərək əsarətə baş qaldırıb yenidən öz müstəqilliyini qazanan Azərbaycan bu gün öz gücünü nümayiş etdirə bilir.

# İranın Ermənistan üçün “qırmızı”, “qara”, “boz” xətti...

## Və ya ehhh müsəlman, müsəlman..!

Məlum olduğu kimi, bugünlərdə erməni KİVləri İranın Ermənistandakı səfiri Abbas Bədəxşan Zohuri və səfirliyin hərbi attaşesi Bəhmən Sadeqin ölkənin müdafiə nazirliyinin müşayiəti ilə Basarkeçər (Geqarkunik) vilayətinə səfər edərək, Ermənistan-Azərbaycan sərhədləri boyunca Azərbaycan ordusunun yeni mövqelərinin müşahidəsini aparıblar. O cümlədən, hərbi hissənin komandanı, erməni general-mayoru Araik Arutyunyan iranlı diplomatları sərhəddəki vəziyyətlə bağlı məlumatlandırıb. Ərazilərdə müşahidə aparan iranlı səfir Zohuri iki ölkə arasındakı sərhədyanı münaqişələrdən narahatlığını ifadə edib və tərəfləri “təmkinli” (?!) olmağa çağırıb, eləcə də məsələnin “sülh yolu” ilə həllinin vacibliyindən danışıb. O, eyni zamanda həlak olan erməni hərbçilərinin ailələrinə də başsağlığı ünvanlayıb...





**Qarabağın işğalı vaxtı ərazilərimizdəki tikililərin çapılıb-talanmasında iştirak edən İran furaları, qanunsuz ticarətlərin həyata keçirilməsi və daha nələri isə xatırlamaq belə istəmirsən!**

Söz yox ki, bu informasiya azərbaycanlı ictimai rəydə təəccüb doğurmaya bilməzdi. Məsələn, sözügedən ziyarətdən sonra belə bir sual yaranır: hazırkı zamana qədər sərhədləri ABŞ və Fransa səfirləri ziyarət ediblər və onlar əvvəldən və açıq-aydın şəkildə erməni cinahında dayandıqlarını nümayiş etdiriblər. Əbəs deyil ki, “əzabkeş” qonşumuzun rəhbərliyi bu ərazilərə amerikalı və fransalı həbrçilərin yerləşdirilməsi təklifləri ilə çıxış etmişdi.

Ancaq bizə “qardaş” deyib, altdan-altan min-bir siyasi oyunbazlıqlardan çıxan İranın rəsmi nümayəndəsinin (!) sərhədyanı ərazilərə gəlişi belə deməyə əsas verir ki, bu tipli “qardaşlıq” bundan sonra da belə davam edərsə, onda həmin münasibətdən əsər-ələmət belə qalmaya da bilər. Axı nəyə görə? Bizim minilliklər boyu əlaqələrimiz hansı səbəbdən bir işğalçı xislətinə qurban verilməlidir?



Qarabağın işğalı vaxtı ərazilərimizdəki tikililərin çapılıb-talanmasında iştirak edən İran furaları, qanunsuz ticarətlərin həyata keçirilməsi və daha nələri isə xatırlamaq belə istəmirsən!

Yaxud, indinin özündə Laçın dəhlizində dəfələrlə qeydə alınmış qeyri-qanuni keçidlər də bu gün internet məkanında kifayət qədərdir. Elə buradaca xatırlatmağın tam yeridir ki, Prezident İlham Əliyev Laçın dəhlizində və bütövlükdə separatçıların qaldıqları ərazilərdə (RF-nın sülhməramlılarına təhkim olunmuş ərazilər) nələrin baş verməsindən xəbərdar olduğunu bəyan edib!

**Hətta belə bir təəssürat yaranır ki, səfir və attaşe sanki düşmən dövlətin mövqelərini izləyir...**

Siz təkcə səfirin fotolarına baxın və onun necə dərindən müşahidə aparmasına diqqət yetirin! Bəlkə də heç erməni hərbçiləri Azərbaycaın yerləşdikləri mövqelərini bu qədər izləməyiblər. İndi Zohuriyə sual etmək lazımdır ki, cənab səfir, binoklla Azərbaycan ordusunun mövqelərini izləyərkən anidən özünüzü fransız, yaxud amerikalı kimi hiss etdinizmi?

Hə, yeri gəlmişkən, İranın XİNnin rəhbəri Cavad Zərif açıq şəkildə bəyan etmişdi ki, Ermənistanın ərazi bütövlüyü İran üçün qırmızı xəttdir. İndi isə biz bunu əməli şəkildə görməkdəyik, yəni İranın Ermənistandakı səfiri və hərbi attaşesi sərhədlərimizə yaxın ərazilərə gedərək, ərazilərimizi ən azından ermənilərin baxışları ilə görürlər, bəlkə belə deyil? Deyilsə, bunu başqa cür necə izah etmək olar?

Görünür ki, Tehranda Ermənistanın “ərazi bütövlüyü” ilə bağlı qayğılanmağa başlayıblar. Halbuki, İranın özünün çoxsaylı problemləri başından aşıb-daşır. Misal üçün, ərəb qonşuları ilə, eləcə də narkotik ticarəti problemi, yaxud terror təhdidləri və ya ölkənin cənub-şərqindəki su qıtlığı və daxili qiyamlar...

**Veclərinə belə deyildi ki, işğal olunmuş ərazilərimizdə müqəddəs yerlər, məscidlər və pirlər donuz tövlələrinə çevrilib**

Xatırlatmağın tam yeridir ki, vaxtilə erməniləri özlərinə “qohum xalq” adlandıran İran hakimiyyəti bu gün də Ermənistan üçün narahatlığını ifadə edirsə, müsəlman ölkə - Azərbaycan torpaqları 30 il boyunca işğala məruz qalarkən, analoji addımları, ümumiyyətlə, xatırlamaq olmur. Yəni İran səfirləri və hərbi attaşeləri ən azından, o zamankı münaqişə xətlərinə belə bir dəfə də olsun səfər etmədilər. İranın ali rəhbərlərinin veclərinə belə deyildi ki, işğal olunmuş ərazilərimizdə müqəddəs yerlər, məscidlər və pirlər donuz tövlələrinə çevrilib.

Amma bütün bunlara rəğmən, bu haqda kiçicik bəyanat belə səslənmədi, sadəcə, “tərəfləri sülhə” çağırdı və hər hansı qırmızı, qara, boz xətlər barədə danışmadı. Ehhh müsəlman, müsəlman..!

Bəs buna nə cavab verəcəklər əcəba?!

***Rövşən RƏSULOV***

# Sosial xidmətlər sahəsində Azərbaycanın yeni brendi

## *İşğaldan azad edilmiş ərazilərdə DOST mərkəzləri və filialları yaradılacaq*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu sosial siyasəti insanların rifah halının yaxşılaşmasına, ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına zəmin yaradıb. Dövlət başçısının göstəriş və tapşırıqları ilə reallaşan islahatlar bir daha təsdiqləyir ki, ölkəmizin gələcəyi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, güzəranının yaxşılaşdırılması sahəsində atılan addımlar insanların xoşbəxt gələcəyinin təminatına yönəldilib. Azərbaycan vətəndaşlarında məmnunluq yaradan DOST mərkəzləri ölkəmizin dövlət sosial xidmətləri sahəsində “ASAN xidmət”dən sonra Azərbaycanın yeni brendinə çevrilib. Bu, ölkəmizin dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulub.**

Ölkə başçısının “Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. Bu gün vətəndaşlar mərkəzin məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin, sosial-hüquqi, sosial-məişət xidmətləri, sosial-pedaqoji və s. sahələr üzrə xidmətlərindən rahatlıqla yararlanır və bundan razı qalırlar.

Mərkəz vətəndaşların nazirlik üzrə bütün xidmətlərdən “bir pəncərə”yə müraciət etməsinə və “bir pəncərə”dən faydalanmasına imkan verir.

Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu mərkəzlərin fəaliyyəti həm insanlara rahatlıq verəcək, eyni zamanda, şəffaflıq istiqamətində önəmli addım artıq özünü doğruldub: “Eyni zamanda, burada tətbiq olunan innovasiyalar bizim gələcəyə baxışımızla tam uzlaşır. Çünki innovativ inkişaf bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Əlbəttə, DOST mərkəzləri məhz bu innovasiyalar əsasında fəaliyyət göstərir və gələcəkdə bu istiqamətdə əlavə addımların atılması da nəzərdə tutulur”.

Hazırda 5 DOST Mərkəzi vasitəsilə Bakı əhalisinin 80%-i və Abşeron rayon əhalisi tam olaraq DOST konsepsiyası üzrə xidmətlərlə əhatə olunur. 2023-cü ilin sonuna qədər daha 8 mərkəzin açılması, yəni DOST mərkəzlərinin sayının 13-ə çatdırılması nəzərdə tutulub. 2025-ci ilədək isə 17 DOST Mərkəzinin yaradılması nəzərdə tutulub. Bu mərkəzlərin açılması istiqamətində görülən işlər davamlıdır. Gəncə, Sumqayıt şəhərlərində, Bərdə, Quba, Masallı, Şəki, Sabirabad rayonlarında DOST Mərkəzlərinin açılması üçün layihələndirmə-tikinti quraşdırma işləri aparılır. Regional DOST Mərkəzləri ilə bərabər, ətraf şəhər və rayonlarda onların filalları, beləliklə, 17 DOST Mərkəzi üzrə onların 47 filialı da yaradılacaq. Bütün bunlarla yanaşı, Naxçıvan MR-də və işğaldan azad edilmiş ərazilərdə də DOST Mərkəzləri və filialları yaradılacaq. Bu il Virtual DOST aplikasiyası da istifadəyə veriləcək.

Ümumilikdə DOST mərkəzlərində “bir pəncərə” prinsipi ilə 2,8 milyon insana 132 xidmət göstəriləcək. İnsanların rifah halının yaxşılaşdırılmasına xidmət edən və onların məmnunluğunu təmin edən DOST Agentliyi və “DOST” mərkəzi məmur özbaşınalığının, korrupsiyanın qarşısını almaqla yanaşı, vətəndaşların vaxta qənaət etmələri baxımından da təqdirəlayiqdir.

Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni bir mərhələ açan “DOST” mərkəzləri qısa bir zamanda şəffaflığı, operativliyi ilə vətəndaş məmnunluğuna səbəb olub.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Üçüncü Ermənistan: RUSİYA

**Kommunist rejimlərin ortaq xüsusiyyətlərindən biri də hakim elitanın dəyə bilmədiyini söyləyən sevimli jurnalistlərinin, şərhçilərinin olması idi. Bu sevimlilər tez-tez diktatorlarla birgə yemək yemələri, yay tətilində onları "bağçada" ziyarət etmələri normal hal idi... Sovet İttifaqında, Çində, Kubada və bütün Şərqi Avropada bu, belə idi. Bu gün isə onları "imtiyazlı qruplar" əvəz edir.**

Üzündən zəhrimar yağan partiya liderlərini bu gün "populist diktator"lar əvəz edir. İndi bu siyasətçilərin ağızları ilə danışan jurnalistlər yox, dövlət adından danışmaq istədiklərini danışa bilən etnik qruplar var. Axı, nə qədər də olsa diktatorun da ictimai dəstəyə ehtiyacı var.

Məsələn, Çində uyğurlar ikinci növ etnik qrup hesab edilir, ölkənin əsas Xan etnik qrupu isə ölkədə müasir dövrün ən imtiyazlı etnik qrupu sayılır. Postsovet məkanında isə mənzərə fərqlidir. Həm Çar Rusiyasında, həm Sovet dövründə, həm də bu günkü müasir Rusiyada ermənilər həmişə "imtiyazlı etnik qrup" olublar. Və bu gün Rusiya praktiki olaraq beynəlxalq aləmdə Ermənistanın himayədarı, dünya siyasətindəki nümayəndəsidir.

Türkiyə, Azərbaycan və Pakistan arasında imzalanmış Bakı Bəyannaməsinə cavab olaraq Moskvada qalmaqal yarananda biz bunun bir daha şahidi olduq. Əlbəttə, Rusiya hökuməti və Prezident Administrasiyası tək bir mənfi söz demədi, amma Moskvadakı erməni təşkilatlarının beyin mərkəzləri, araşdırma mütəxəssisləri, jurnalistlərin reaksiyasını nəzərə alsaq, bunu sadəcə, "səs-küy" adlandırmaq olmaz, bu, bəlli dairələrin əsl üzü, münasibəti idi.

Bakı bəyannaməsi sadəcə, üç ölkə arasında parlament spikerləri səviyyəsində imzalanmış daha sıx əməkdaşlıq vəd edən sənəd idi. Rusiyanı ABŞ-dan sonra üçüncü Ermənistana çevirən erməni lobbi təşkilatları isə elə bir yalana imza atdılar, feyk xəbərlər yaydılar ki... İmzalanma mərasimində Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun guya üç ölkə arasında vahid bir ordu qurulduğu barədə yalan xəbərdən sonra "şərh karvanına" təkcə erməni dərnəkləri və qurumları deyil, Rusiya mətbuatı da qoşuldu. Türkiyənin təkzib materialları isə bir neçə gün sonra mətbuatda yayıldı. Lakin saxta xəbərlər və şərhlər qəzetlərin və saytların ön səhifələrdə, manşetdə yer alarkən, təkzib xəbərləri daxili səhifələrdə və ayrı sütunlarda dərc edildi.

Erməni lobbisi və onun ictimai rəyi formalaşdırmaq üçün apardığı əməliyyatlar Rusiyada özünü ilk dəfə hiss etdirmir. Ermənistanın 1994-cü ildən bəri Azərbaycanın ayrılmaz hissəsi olan



Dağlıq Qarabağda davam etdirdiyi işğala son qoymaq üçün rəsmi Bakının gördüyü işlər, apardığı danışıqlar və nəhayət 44 günlük II Qarabağ savaşında yalnız erməni mediası deyil, eyni zamanda erməni lobbisinin təsiri altında olan Rusiya mediasında da yanlış ictimai rəyin formalaşması məqsədi ilə əməliyyatlar başlandı, televiziyalarda müəllif verilişlərə start verildi. Maraqlıdır ki, erməni lobbisi izi itirmək üçün etnik ermənilərdən olmayan müəlliflərə daha çox üstünlük verdilər. Amma elə bir veriliş olmadı ki, orada bir, yaxud iki erməni "ekspert" iştirak etməsin. Həmin "ekspert"lər isə daha çox Ermənistanın 30 illik işğalçılıq siyasətini, Dağlıq Qarabağ və ətrafındakı 7 rayonu işğal altında saxladığını, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini rədd etməsini arxa plana keçirməklə, keçmişi unutdurmaqla, gözə kül üfürməklə, Azərbaycanın başladığı azadetmə əməliyyatlarına "işğal" donu geyindirməklə məşğul oldular. Sanki, Ermənistanın işğal etdikləri ərazilər heç vaxt Azərbaycan olmayıb, əksinə Azərbaycan regionda işğalçılıq siyasəti yürüdür, sülhə təhdid yaradır, dinc əhalinin həmin ərazilərdə yaşamasına əngəl törədir. Amma, Azərbaycan savaşda haqlı tərəf olduğunu, öz ərazilərinin erməni silahlı qüvvələrindən azad etdiyini bütün dünyaya vaxtında çatdıra bildi.

Gələk Rusiyanın üçüncü Ermənistan olmasına. Azərbaycan Rusiya ilə bütün sferalarda - iqtisadi, siyasi, hərbi, aqrar, nəqliyyat, kommunikasiya sahələrdə geniş əlaqələrə sahibdir. Bölgədə həyata keçirilən iriii-xırdalı layihələrdə iki ölkə tərəfdaşlıq edirlər. Azərbaycanda Rusiyanın yüzlərlə şirkətləri fəaliyyət göstərir. Amma siyasi məsələlərdə bir az mütəhərriklik özünü büruzə verir. Bu da, yuxarıda dediyimiz kimi, erməni lobbi təşkilatlarından asılı olanların çıxışlarında özünü göstərir. Əməldə isə bu, heç də belə deyil. Yəni erməni lobbisinin apardığı əməliyyatların, təbliğatların əksəriyyəti praktik olaraq həyata keçirilmir. Təbii ki, Rusiya daha çox milli maraqlarını qorumağa üstünlük verir. Rusiyada erməni lobbi təşkilatlarının anti-Azərbaycan təbliğatı bəzən ermənilər tərəfindən yanlış başa düşülür. Yəni, Ermənistan erməniləri Rusiyadakı lobbilərinin "əməyi" sayəsində formalaşdırılan ictimai rəyi rəsmi Moskvanın münasibəti kimi yozub bundan öz məqsədləri üçün istifadə etməyə çalışırlar. Bəzən tərsinə də olur, Rusiya çinovnikləri yanlışlıqla, erməni lobbisinin təsiri altında səhv addımlar atırlar. Bu da sonda Rusiyanın Fransa və ABŞ-dan sonra "üçüncü Ermənistan" olması fikrini isbat edir.

"Üç Ermənistan"ın varlığına, yoxluğuna baxmayaraq, bundan sonra Türkiyə, Azərbaycan və Pakistan tək bir ordu olmasa da, qardaşlıq halqası yaradacaq, hər üç ölkənin iştirak edəcəyi Millətlər Birliyi ideyasını gerçəkləşdirəcəklər.

***V.VƏLİYEV***



**RÖVŞƏN**
*rovsen.rasulov@mail.ru*

## Araikin başı dumanlanıb: Qarabağlı ermənilər, sonra gec olacaq haaa!

**Belə baxanda, həqiqətən də Qarabağda yaşayan ermənilərə adamın lap yazığı gəlir. Bəli, onları istənilən şəkildə təqdim etmək olar - separatçılar, düşmənlər, daşnak ideyalarının təbliğatçıları, terrorçular və s. və i.**

Lakin bu gün sadə ermənilərin, hətta Azərbaycan qanunları və pasportları ilə yaşamağa hazır olan qarabağlı ermənilərin mövcud vəziyyətləri həqiqətən də çox ağırdır. Daha dəqiq desək, günah yenə də onların başları üzərində dayanaraq utopiya ilə məşğul olanların, sadə kəndliləri Azərbaycan tanklarının, PUA-larının, qırıcı təyyarələrinin, ümumiyyətlə, top-tüfənglərinin üzərinə göndərənlərdədir. Məsələ ondadır ki, quldur Araikin rəhbərliyi altında Qarabağın bədbəxt erməni cəmiyyəti qorxu altında saxlanılır, onlara yalanlar sırınır. Azərbaycanlıları "xoxan", özlərini isə "mələk" kimi dünyaya zorla sırımağa çalışan Araikin əslində çoxdan tutularaq qanunlar qarşısına çıxarılmasının zamanı çatıb. Yəni onun məhz Azərbaycan torpaqlarında əllərini-qollarını sallaya-sallaya gəzməsinə yekun "DUR!" deməyin vaxtıdır. Yaxşı, vaxtıdırsda, bəs bu zaman nəyi gözləyirik əcəba?

Bu ünsür, yaxud məxluq və ya terrorbaşı, həm də onun yan-yörəsi öz biznes maraqlarını həyata keçirmək üçün kağızdan barrikada qurub və Azərbaycanın erməni vətəndaşlarını da düzüb həmin barrikadanın qarşısına. Onun üçün maraqlı deyil ki, bundan sonra kimsə öləcək, kimsə qalacaq, ona maraqlı olan qanunsuz biznesini davam etdirməkdir. Halbuki, Qarabağın su və torpaq resurlarının 95%-i işğaldan azad edilib, Araik isə deyir ki, onlar, yəni separatçılar uduzsalar da bu məğlubiyyət faciəli deyil. Görəsən, bu ünsür və ya məxluq həmin sözlərini deyəndə aşırı alkoqolu içkisininmi təsirində? Və ya o, ağır narkotik məhlulu qəbul edibmiş?

Görün nə deyir bu gəda: "Biz gərək öz mübarizəmizi davam etdirək", yaxud "əgər Rusiya ordusu regiona daxil olmasaydı, bizim taleyimiz tamamilə fərqli olardı". Onun dediyindən belə nəticə hasil etmək olar ki, əgər Rusiya sülhməramlıları Qarabağın bəlli nöqtələrinə təhkim olunmasaydılar, onda ermənilərin taleləri fatal olardı, hətta dəhşətli dərəcədə ağlamalı. Onun sözləri bu cür qənaəti gətirir.

Yaxşı, bəs onda "Biz öz mübarizəmizi davam etdirməliyik" tipli fikirləri necə anlayaq? Buradan isə tamamilə ayrı kontekst çıxır - yəni "rus sülhməramlılarına atəş açaq və hədəflərimizə çataq". Bir tərəfdən Rusiya bunları xilas edib, digər tərəfdən isə onlar buna görə ruslara öz "təşəkkürlərini" bildirəcəkmişlər. Axı başqa cür anlamaq da olmur bu terrorçu ünsürün dediklərini!

Amma yox! Araik adlı quldurbaşının dediklərindən fərqli olaraq, Qarabağ ermənilərinin çıxış yolları var və bu yol yeganədir - azad, normal həyat yaşamaq üçün Azərbaycanın qanunlarına, tələblərinə inteqrasiya olunmaq. Çünki ayrı istənilən yol regionda növbəti müharibənin başlanması və onların tamamilə məhvləri deməkdir. Zatən Araik də bunu istəmirmi? Ona görə də, qarabağlı ermənilər də anlamalıdırlar ki, Azərbaycan torpaqlarını 30 il işğala məruz qoyan, talan edən xunta-quldur rejiminin sonunu yenə də Azərbaycan ordusu cəmi 44 günə gətirdi. Hər halda Araikin öz ermənilərinə yazığı-filanı gəlmir, gəlsəydi zatən bəlli fikirləri səsləndirməzdi. Ermənilər isə nədənsə "fil qulağında" yatmağa davam edirlər, amma bir gün gözlərini açanda Azərbaycanın üçrəngli bayrağının 30 il əvvəl azərbaycanlılardan zorla aldıqları evlərinin damlarında dalğalanacağını görəndə də çox gec olacaq haaa!

# "Növbəti qarşıdurma Ermənistan dövlətçiliyinin məhvi ola bilər"

"Nikol Paşinyanın Baş nazir təyin edilməsi gözlənilən idi. Çünki bu şəxs Ermənistanda keçirilən parlament seçkilərini udmuşdu və seçkilərin nəticələrinə görə də, Paşinyanın bu ərsəyə gətirilməsi gözlənilən idi. Burada söhbət ondan gedir ki, Paşinyanın artıq baş nazir vəzifəsinə təyin edilməsindən sonra Ermənistan iqtidarının siyasətində hansı dəyişikliklər ola bilər?". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.

Onun sözlərinə görə, parlamentdəki rəqiblərinin Paşinyana təsir imkanları bir o qədər də güclü olmayacaq: "Burada Köçəryan və Sarkisyanın rəhbərlik etdiyi qüvvələrdən gedir. Bu kontekstdə Paşinyan əslində Moskva razılaşmasının şərtlərinin yerinə yetirilməsi ilə bağlı məsələlərdə əl-qolu artıq açıqdır. Seçkiyə gələn Ermənistan vətəndaşlarının 80 faizi ona



səs verib. Bu bir faktdır ki, Ermənistan Azərbaycana qarşı savaşı uduzdu. Bu o deməkdir ki, artıq Ermənistan prinsip etibarı ilə Azərbaycanla qarşıdurmadan çəkinir və növbəti müharibənin Ermənistan üçün hansı problemlər doğura biləcəyi ilə bağlı erməni vətəndaşları məsələlərin mahiyyətinə vara bilirlər. Ona görə də, onlar daha çox stabilliyə səs veriblər, yəni Paşinyana səs veriblər. Yəni onlar daha çox Ermənistanın korrupsiya bataqlığından çıxarda biləcək komanda və onun siyasətinə səs veriblər.

Etiraf edək ki, Paşinyanın indi bütün bu problemləri həll etmək üçün gerçək imkanları var. Yəni Moskva razılaşmasının şərtlərinin yerinə yetirilməsi Ermənistanın iqtisadi blokadadan çıxarılması deməkdir olacaq və bu baxımdan, Azərbaycan öz üzərinə götürdüyü öhdəlikləri həmişə yerinə yetirib və bundan sonrada yerinə yetirməyə hazırdır".

Politoloq onu da bildirdi ki, Paşinyan Zəngəzur dəhlizinin açılması ilə bağlı əldə edilmiş razılaşmanın yerinə yetirilməsi istiqamətində konkret addımlar atmalıdır: "Nəqliyyat-kommunikasiya xətlərinin açılması ilə bağlı məsələ ətrafında müzakirələr aparılmalı və təbii ki, razılıqlar əldə olunandan sonra nəqliyyat kommunikasiya xətləri açılmalıdır. Bu halda Ermənistan düzələ bilər. Ən əsası isə Paşinyan Ermənistanın Azərbaycana qarşı torpaq iddialarından imtina etməli və Dağlıq Qarabağ münaqişəsinin bitməsi ilə bağlı iqtidarının mövqeyini açıqlamalıdır. Ermənistan başa düşməlidir ki, Azərbaycan daxilində ermənilərə statusun verilməsindən söhbət gedə bilməz. Bu halda Azərbaycan və Ermənistan arasında münasibətlərin artıq normal müstəvi üzərinə köçə biləcəyi ilə bağlı fikirlər söyləmək olar. Amma ən əsası ondan ibarətdir ki, Paşinyan bütün bunları etmək üçün indiyə qədər nümayiş etdirdiyi mövqedən geri çəkilməli və Ermənistanın xeyrinə perspektivdə hansısa geosiyasi reallıqların dəyişə biləcəyi ilə bağlı illüziyalarından imtina etməlidir. Hər halda Paşinyanda belə bir ümidlər var. Çünki Avropa Birliyinin, Qərbin Ermənistanla apardığı danışıqlar və Ermənistana vəd edilən maliyyə kreditləri Paşinyan da belə bir ümidlərin yaranmasına səbəb ola bilər. Amma Paşinyan nəzərə almalıdır ki, dəmir yumruq həmişə öz yerindədir və Azərbaycanla növbəti qarşıdurma Ermənistan dövlətçiliyinin məhvi ola bilər".

***Gülyana***

# Yevgeni Mixaylov: "Ermənistanın təxribatlarının motivatoru Fransa və ABŞ-dır"



**Atışmaların davam etdiyi Ermənistan-Azərbaycan sərhədində vəziyyətin gərginləşməsinin görünən təşəbbüskarı Ermənistan tərəfidir. Ancaq bunun arxasında duran gizli qüvvə Fransa və ABŞ-dır. Beynəlxalq münaqişələr sahəsində ekspert Yevgeni Mixaylov "Moskva-Baku" portalına müsahibəsində bu qənaətlərini əsaslandırıb. Müsahibəni oxucularımıza təqdim edirik.**

- Hesab edirəm ki, bu vəziyyətin görünən təşəbbüskarı, əlbəttə ki, Ermənistan tərəfidir, amma gizli qüvvə, əminəm ki, Qarabağ münaqişəsinin həllindən uzaq duran Fransa və ABŞ-dır. Təsadüfi deyil ki, indi KTMT-yə Ermənistandan zənglər gəlir, təşkilat buna cavab vermir və dərhal ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin qoşunlarının cəlb edilməsi barədə danışıqlar gedir və burada digər həmsədrlərin Fransa və ABŞ olduğunu biz bilirik. İrəvan bütün təxribatları bir məqsədlə edir-sülhməramlı prosesi gecikdirmək, yeni oyunçuları tanıtmaq və prinsip etibarilə Ermənistanın əvvəlcədən razılaşmağa məcbur olduğu şərtlərlə sülh müqaviləsinin imzalanmasının qarşısını almaq.

İndi görürük ki, Paşinyan yenidən bizə necə gülümsəyir və kömək istəyir, birgə təşəbbüslər göstərir. Amma eyni zamanda, sərhəddə vəziyyət gərginləşir, Rusiya sülhməramlılarının örtüyü altında atəş açılır, Azərbaycan tərəfi buna sərt cavab vermir. Bakı Rusiya tərəfi ilə bu vəziyyətdə nə etməli olduğuna dair məsləhətləşmələr aparır. Əminəm ki, sülhməramlı prosesin qarantı olan Rusiya, ilk növbədə, yekun sülh müqaviləsinin imzalanmasında maraqlıdır. Və İrəvan buna qarşı çıxır. Bu, münaqişə ətrafında gedən əsas oyundur.



*- Paşinyan özü bu ssenarini idarə edir, digər tərəfləri münaqişəyə cəlb edir, yoxsa Fransa bu münaqişədə müəyyən mövqe əldə etmək istəyərək hərəkət edir?*

- Paşinyanın hərəkətlərinin əsas moderatoru kimi çıxış edən Fransadır. Amma indi Fransanın Ermənistana təsirini aradan qaldırmaq üçün diplomatik iş aparmaq praktiki olaraq mümkün deyil. Fransadakı erməni diasporu çox güclüdür və təkcə maliyyə baxımından deyil, həm də lobbi maraqları baxımından güclüdür. Yəni, Fransa prezidenti Emmanuel Makron indi Fransanın deyil, erməni diasporunun maraqları üçün hərəkət edir.

*- Bakı buna qarşı nə ilə çıxa bilər?*

- Bu vəziyyətdə Bakı yalnız Moskva ilə razılaşdırılmış hərəkətlərlə buna qarşı çıxa bilər. İndi Bakı bir az səhv edərsə, İrəvan artıq digər vəzifələrini də həll edəcək. Axı biz başa düşürük ki, Ermənistan yalnız Azərbaycanın mövqelərini atəşə tutmur, onlar Bakının kardinal cavabını gözləyirlər. Və radikal cavab veriləcəyi təqdirdə, Rusiya sülhməramlıları təsadüfən zərər çəkə bilər.

Hazırda bu vəziyyətdə yeganə rıçaq Rusiya Federasiyasıdır ki, müxtəlif səviyyələrdə bütün diplomatik səylərini üçüncü şəxslərin hərəkətlərini zərərsizləşdirmək üçün edə bilər. Bu, yeganə yoldur.

Rusiyada güclü erməni diasporu da var, təbii ki, onun təsiri Ermənistanın özünün siyasi qüvvəsinin təsiri ilə müqayisə olunmazdır. Çox zəngin və nüfuzlu Rusiya diasporasının Ermənistanda belə bir vəziyyətə necə yol verdiyini anlamıram. Sadəcə, bunu qaçırdılar və indi yalnız birgə səylərlə bundan çıxmaq lazımdır.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

# "Düşmənə şans verməməliyik"

**"Ermənistan 44 günlük Vətən müharibəsində məğlub olub kapitulyasiya akını imzalasa da, Azərbaycan işğal altında olan torpaqlarını azad etsə də, iki ölkə arasında sülh sazişi hələ ki, imzalanmayıb, sərhədlərin delimitasiya və demarkasiyası başa çatmayıb". Bunu SİA-ya açıqlamasında Müşfiq Ələsgərli Jurnalistlərin Həmkarlar İttifaqının sədri Media eksperti bildirib.**



Onun sözlərinə görə, Ermənistanın revanşist qüvvələri hələ də toparlanmaq, qisas almaq haqqında düşünürlər: "Bu proseslər başa çatmayınca, iki ölkə arasında sülh sazişi imzalanmayınca, ayıq-sayıqlığı itirməməliyik, düşmənə şans verməməliyik. Bilməliyik ki, düşmən pusqudadır, hər addımımızı izləyir. Xüsusi olaraq, Azərbaycan mediasını, sosial şəbəkə platformalarının Azərbaycan seqmentini çox diqqətlə izləyirlər, burada yayımlanan bütün informasiyaları təhlil edirlər, həmin informasiyalar əsasında ölkədəki durumu dəyərləndiririlər, bəzən kontekstdən çıxarıb ölkəmiz haqqında yanlış rəy də formalaşdırırlar. Ötən həftə Ermənistanın analitik mərkəzləri tərəfindən yayımlanan hesabatı gördük. Azərbaycan mediasının son 3 aylıq monitorinqininin nəticələrinə həsr edilmişdi. Bu faktın özü göstərir, Azərbaycan mediası, sosial şəbəkə seqmenti düşmən tərəfindən necə diqqətlə izlənilir, müşahidə olunur. Azərbaycan jurnalistləri, sosial şəbəkə aktivləri bu mənada diqqətli olmalıdırlar. Xüsusən, hərbi mövzuda yazı yazarkən, informasiya paylaşarkən, hər bir cümləni diqqətlə ölçüb biçməlidirlər. Bu, həm də qanunlarımızın tələbidir. Mövcud qanunlar hərbi mövzuda informasiya paylaşarkən, həssas yanaşmanı tələb edir".

M.Ələsgərli bildirdi ki, 2014-cü ildən başlayaraq, informasiya təhlükəsizliyini ehtiva edən qanunlara əlavə və dəyişikliklər edilib, bütün nüanslara aydınlıq gətirilib: "Həmçinin, Prezident İlham Əliyevin mövzu üzrə bir neçə sərəncamı olub. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 sentyabr tarixli Sərəncamını bu baxımdan dönüş nöqtəsi hesab etmək olar. Bütün bu qanunlarda, sərəncamlarda çox aydın şəkildə göstərilir ki, xəbər istehsalçıları hərbi mövzuda informasiya hazırlayarkən, necə davranmalıdırlar. Çox təəssüf ki, əksər xəbər istehsalçıları, hətta bəzən jurnalistlərimiz də bu qanunları görməzdən gəlirlər, hərbi mövzuda informasiya yayarkən, dəqiqləşdirilməmiş, ehtimallar üzərində qurulan xəbərlərə üstünlük verirlər. Dünəndən etibarən Azərbaycan Ordusunda ştat dəyişikliyi, şəxsi heyətin rotasiyası, kadr islahatları barədə çoxsaylı informasiyalar yayılır. Çox təəssüf ki, bu məlumatlar kontekstdən çıxarılır, təhrif edilir, ehtimallar üzərində qurulur. Bu, çox təəssüfedicidir. Bu baxımdan Müdafiə Nazirliyinin narahatlıq keçirməsi də başadüşüləndir. Jurnalistlərimiz, sosial şəbəkə istifadəçilərimiz Nazirliyin müraciətini nəzərə almalı, bu yöndə informasiya paylaşımında dəqiqlik amilini gözləməli, rəsmi dairələrlə dəqiqləşdirmə aparmalıdırlar. Əlavə olaraq qeyd etmək istərdim ki, iki ölkə arasında mübahisələrin davam etdiyi şəraitdə "Hərbi informasiya mərkəzi"nin fəaliyyətinin davam etdirilməsi zəruri sayıram. 44 günlük Vətən müharibəsi günlərində formalaşdırılan "Hərbi informasiya mərkəzi"nin dövlət qurumlarının, rəsmi şəxslərin iştirakı ilə gündəlik brifinqlər keçirməsi, jurnalistlərin suallarının operativ cavablandırılması çox faydalı idi. Jurnalistlərə imkan verirdi ki, istədikləri sualları operativ şəkildə dəqiqləşdirsinlər, Azərbaycan cəmiyyətini doğru, düzgün məlumatlarla təmin etsinlər".

***Gülyana***

# "Ölkədə hər şey qara rəngdən ibarət deyil" - AMİP funksioneri münasibət bildirdi

"Parlament üzvünün biri polis əməkdaşını döyür. Əlbəttə ki, bu, düzgün hərəkət deyil. Parlamentin deputatla bağlı qərarını haqlı hesab edirəm. Hər kəs qanun qarşısında bərabərhüquqludur. Bununla belə AXCP, Müsavat və "Milli Şura" kimi qurumlar və onların rəhbərləri 44 günlük Vətən müharibəsində müzəffər ordumuzun əldə etdiyi qalibiyyətimizə kölgə salmaq üçün şər-böhtan kampaniyaları yanlış hərəkətdir". Bunu SİA-ya açıqlamasında AMİP funksioneri Əli Orucov deyib.

Onun sözlərinə görə, müxalifət partiyalarının vəzifəsi ondan ibarətdir ki, hakimiyyəti müəyyən məsələlərə görə, tənqid etsin və çatışmayan cəhdlərini göstərsin: "Lakin o başqa şeydir ki, qarayaxma edir, hər şeyə qara baxır, pisləyir, qarşıdurmaya can atır. Axı ölkədə hər şey qara rəngdən ibarət deyil. Ola bilər müəyyən sahələrdə mənfi tərəflər var, axı müsbət tərəfləri də var. Müxalifət ölkədə olan müsbət tərəfləri də deməlidir. Ümumiyyətlə, burada milli və dövlətçilik maraqlarından söhbət gedirsə, müxalifət yanlış hərəkətlər etməməlidir".

***Gülyana***

# Əli Kərimlinin trollinq “siyasəti” necə ifşa olundu?

*AXCP sədri danışdıqca öz bəd əməllərini daha çox üzə çıxarır*

**AXCP-də baş verən istefalar və bu istefaların fonunda ona qarşı yürüdülən ittihamlardan biri də sədr Əli Kərimlinin partiyadaşlarına qarşı avtoritar münasibət nümayiş etdirməsidir. Nə maddi, nə də insani baxımdan nə xeyirə, nə də şərə yarayan AXCP sədrinin əsas işi-gücü isə sosial şəbəkələrə yerləşdirdiyi trollarını onu tənqid edənlərə qarşı söyüş söydürməkdən ibarət olur. O, nə qədər iddia etsə də ki, həmin vasitəni istifadə etmir, ortaya çıxan faktlar tamamilə əksini göstərir.**




Daha çox sosial şəbəkələrdə fəaliyyət göstərən gənclər də, əslində, Əli Kərimlinin söyüş, təhqir kampaniyalarının baş icraçısı olduğunu dəfələrlə üzə çıxarıblar. Misal üçün, YAP-ın gənclər qolunun sosial şəbəkələrdəki fəallarından olan Anar Şahmuradlı olduqca maraqlı və diqqətçəkən sübutları araşdıraraq tapıb və Facebook sosial şəbəkəsində ictimailəşdirib.

SİA xəbər verir ki, onun qeyd etdiyinə görə, Əli Kərimlinin Kəramət Böyükçölə verdiyi müsahibəsində danışdığı daha bir yalanı faktlarla sübut etmək heç də çətin məsələ deyil. SİTAT: “Adam deyir ki, siyasətdə söyüş və təhqirin əleyhinədir. Ancaq o, sadəcə, efirə belə deyir. Nə əleyhinədir?! Elə əsl işi ona qarşı əks arqumentlə çıxış edən istənilən şəxsi söydürüb, təhqir etdirməkdən ibarətdir. Bütün bunları cəbhəçilərin sosial şəbəkələrdəki iyrənc əməllərinə əsaslanaraq deyirəm”.

Gənc fəal haqlı olaraq arqumentlərə söykənən sualları da ünvanlayıb. “Əgər həqiqətən də Əli Kərimli söyüş və təhqirin əleyhinədirsə, o zaman nə üçün sosial şəbəkələrdə bu cür yaramazlıqları edən cəbhəçilərə qarşı bir tədbir görmür? Olmaya Əli Kərimlinin buna partiya sədri olaraq ixtiyarı çatmır?”, sualını verən gənc onu da qeyd edib ki, əgər Əli Kərimlinin müsahibəsində dediklərini həqiqət kimi qəbul etsək, o zaman belə anlaşılır ki, cəbhəçilər onu saymır, öz bildikləri ilə məşğul olurlar: “Bir sözlə, Əli Kərimlinin sözləri ilə əməli üst-üstə düşmür. Ortada iki variant var. Birinci variant, Əli Kərimli həqiqətən də bu işlərin başında şəxsən özü durur. İkinci variant, Əli Kərimli söyüş və təhqirin əleyhinədir, cəbhəçilər onu saymır, öz bildiklərini edirlər. Hər iki halda Əli Kərimlinin acizliyi, səriştəsizliyi üzə çıxmış olur. Əli Kərimli bu “kompetensiyalarlamı” xalqa, ölkəyə, dövlətə rəhbərlik iddiasınadır? Hesab edirəm ki, Azərbaycan xalqı bir daha 1992-1993-cü illərə qayıtmaq istəməz! Odur ki, Əli Kərimli və cəbhəçiləri elə AXCP-dəki “qısa-qapanmalarla” yaşasalar məsləhətdi! Azərbaycan cəmiyyəti üçün AXCP adına bağlı heç nə lazım deyil, bir halda hər şey mədəniyyətdən başlayır, elə “cəbhəçi mədəniyyəti” də ancaq söyüşdən, təhqirdən ibarətdir! Allah onların “idarəçilik mədəniyyəti”ndən qorusunun xalqımızı...”.

Görünən isə budur ki, faktı inkar etmək mümkün deyil, hətta AXCP sədri olaraq özünü zorla ictimai rəyə sırıyan Əli Kərimli nə qədər ona qarşı olan iddiaları inkar edərsə, özünü bir o qədər də ifşa etmiş olacaq. Sonda isə qeyd etmək yerinə düşərdi ki, siyasətdə söyüş söymək, təhqirlərə yol vermək çıxılmazlığın, zəifliyin aşkar əlamətidir. Bunu isə ortaya çıxan və təqdim edilən isbatlardan da sezmək elə də çətinlik yaratmır - Əli Kərimlinin trollinq “siyasəti” fonunda...

**Rövşən RƏSULOV**

# Jirinovskinin məqsədi nə idi?

Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski yenə də üzvü olduğu partiyaya əks olan faşist hətta imperialist çıxışlar edib. Seçkiqabağı kampaniyaya görə, belə avanturist çıxışlar edən Jirinovski Cənubi Qafqazın Rusiyanın uzun müddət nüfuz dairəsində olduğu üçün Rusiyanın iradəsi ilə hər kəsin hesablaşmalı olduğunu bildirib. Belə bir qərəzli və qıcıq yaradacaq fikirlərin səsləndirilməsi böyük etirazlarla qarşılanıb. Digər tərəfdən onun Azərbaycan xalqını və dövlətçiliyini təhqir etməsi də Azərbaycan-Rusiya münasibətlərinə xələl gətirə bilər. Siyasi təlxəyin fikirləri nə dərəcədə qeyri-ciddi olsa da cavabsız qoyulmamalıdır. Buna görə də Azərbaycan Xarici İşlər Nazirliyi nota göndərib və nəticədə bir çox rusiyalı siyasətçi Jirinovskinin adından üzr istəyib.



Bundan başqa media orqanları da bu məsələni qabardmaqdadır. Deputat Vüqar Bayramov öz feysbuk hesabında onun qalmaqallı açıqlamasını dəyərləndirib. “O, Azərbaycan hakimiyyətini rus əsgərləri ilə təhdid edib. Artıq neçənci dəfədir ki, sərsəm-faşist ritorikasına üstünlük verən Jirinovski ölkəmizə qarşı bu şəkildə hədyan dolu çıxışlar edir. Amma bu sərsəm ritorikadan başqa heç nə deyil. Aydındır ki, Jirnovskinin sayıqlamaları Rusiyanin rəsmi mövqeyi kimi qəbul edilə bilməz və son illər iki dövlət arasında münasibətlərin, o cümlədən, iqtisadi əlaqələrin genişlənməsi müşahidə olunur. Ancaq bu siyasi təlxək anlamalıdır ki, bu sayıqlamaları Azərbaycanın haqq işinə xələl gətirə bilməz. Azərbaycan müstəqilliyinə təhdid ola biləcək hər addımı dəf etmək gücündədir və güclü xalq-iqtidar birliyi də mövcuddur ki, bu birliyin sayəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan ordusu uzun müddət işğal altında qalan torpaqlarımızı şəhidlərimizin qanı bahasına azad edərək ərazi bütövlüyümüzü bərpa edib”.

V.Bayramov eyni zamanda qeyd edir ki, “erməni havadarları anlamalıdırlar ki, güclü Azərbaycan ordusu bu Zəfəri hər zaman qorumaq iqtidarına malikdir. Şanlı ordumuzun qəhrəmanlığı ilə torpaqlarımızı işğaldan azad edən “Dəmir Yumruq” yenə yerindədir, hər an torpaqlarımıza göz dikənləri başına endirilə bilər”.

Ümumilikdə Jirinovski parlament spikeri olmaqla Rusiya siyasətində müəyyən qədər söz sahibidir. Eyni zamanda unutmaq lazım deyil ki, o həm də partiya rəhbəridir. Beləliklə Jirinovski erməni lobbisinin və ipmerialist qüvvələrin səsini toplamaq fikrindədir. Rus siyasətçilər isə Jirinovskinin seçkidən sonra yenə də üzr istəyəcəyini praqnozlaşdırırlar.

Digər tərəfdən isə Jirinovskinin öz qərəzli çıxışlarında tez-tez türklər deməsi də Türkiyə-Rusiya münasibətlərini də korlamağa hesablanıb. Daha mühüm tərəfi isə budur ki, Jirinovskinin bu tip məqsədləri Qarabağdakı Rusiya-Türkiyə-Azərbaycan əməkdaşlığına və planlara xələl gətirir. Bu isə Rusiya dövlətinin məqsədlərinə və planlarına birbaşa olaraq ziddir.

Jirinovskinin həm də SSRİ-nin yeni modelinin bərpası barədə danışması da sadəcə ağılsızlıqdır. Bu barədə onun danışıqları isə sadəcə bu nağıllara inananların səsini toplayaraq nələrəsə nail olmağa hesablanıb. Lakin Jirinovski bilmir ki, artıq o ciddi siyasətçi kimi qəbul olunmur. Belə ki, onun yığacağı səslərin də heç bir önəmi yoxdur.

Rəşad Mahmudov həkim kimi V.Jirinovskinin çox güman ki, uşaq yaşlarında ciddi travma aldığını düşünür: “Bu səbəbdən də o vaxtdan fikir və düşüncəsində, həyata baxışında anormallıq özünü büruzə verir. Əlbəttə, daim nəzərə çarpan bu çatışmazlığın həmin zədədən qaynaqlandığını özündən savayı bir kimsə etiraf edə bilməz. Bax, onun təkcə Azərbaycana deyil, bütün dünyaya püskürdüyü bu kin-küdurətin, qısasın əsasında həmin travmadan irəli gələn düşüncə kasadlığı dayanır”.

**Zərdüşt Quluzadə**



# Əli Kərimov yenə “qotur salmış keçi kimi” qaşınır

**RƏFİQƏ**

Deyirlər, torpaq su ilə qarışanda palçıq, şəhid qanı ilə qarışanda isə Vətən olur. Bəli, bu 44 gün ərzində igid oğullarımız Vətən yolunda canını sipər etdi, qanları ilə bu torpağı suladı, qorudu ki, Vətən torpağını qeyrət, qəhrəmanlıq, hünər, təəssübkeşlik bitsin, göyərsin... Çünki bu gün işğal olunan torpaqlarımızın azad olunmasında Şəhid olanlar ilk gündən bildirdilər ki, azad olunan torpaqlarımızda üçrəngli Azərbaycan Bayraqlarımızın dalğalanması yolunda Şəhid olmuruq, Şahid oluruq! Çünki bu gün bu əsgərlərimiz üçün cəbhə bir ananın oğullarıdır, bir bacının qardaşlarını bir olduqları döyüş meydanıdır. Çünki “Vətən üçün ölməyə dəyər!” - deyən və hər kəsə nəsib olmayan Tanrının, haqqın dərgahında olan Şəhidlərimiz sayəsində bu gün bütün evlər, eyvanlar, yollar üçrəngli Bayrağımızla bəzənib. Bax, budur Şahidlik edən oğullarımızın Şəhidliyi! Çünki Azərbaycan əsgərinin məsləki Qürurdur, Zəfərdir, Vətən torpağına üç rəngli Azərbaycan Bayrağını sancmaqdır! Bax, budur qeyrət, hünər! Siz Azərbaycanın rəşadətli, igid əsgərlərisiniz! Siz xilaskar əsgərlərimizin qanı ilə yoğrulan torpaqlarımızın xilaskarlarısınız. Çünki Qarabağ Azərbaycandır!

Ancaq Vətəni, qeyrəti, namusu olmayanlar sosial şəbəkələrdə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri adından istifadə edib siyasi divident qazanmağa çalışan AXCP sədri Əli Kərimli kimi bir satqının Şəhidlərə “şahidlik” etməsi cinayətdir. Çünki Əli Kərimlidə xalq, Vətənlə bağlı heç bir mənəvi dəyər qalmayıb. Bu cür dəyərsiz insanların sözü də dəyərsiz olur. Və bu dəyərsiz, mənəviyyatsız, daha doğrusu, əxlaqsız Əli Kərimli artıq dediyi böhtanlar qalmadığını görüb, yenə də sosial şəbəkələrdən Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və veteranları adından istifadə edərək cəmiyyətdə çaşqınlıq yaratmağa çalışır. Guya ki, bu kateqoriyadan olan insanlara cəmiyyətimizdə biganə münasibət var, dövlətin onlar üzərində heç bir qayğısı və diqqəti yoxdur. Artıq bu korluq və karlıqdır. Elə buna görə də Əli Kərimlinin bu yalanları ilə bağlı sosial şəbəkələrdə ardıcıl olaraq böyük təpkilər başlayıb.

Belə ki, sosial şəbəkə istifadəçisi Vüsal Hacıyev bildirir ki, AXCP yarandığı gündən Əli Kərimli kimi simasını itirmiş birinə görə o partiyada adam qalmayıb: “Elə bu günlərdə AXCP-nin ən aktiv fəallarından sayılan Fatimə Hüseynova partiyadan istefa verib. Bu, partiyada ilk istefa xəbəri deyil. Çox güman, sonuncu da olmayacaq. Görünür, xarici havadarlarının və aldığı qrantların hesabatını vermək üçün Əli Kərimov yenə “qotur salmış dana kimi” qaşınır... Yaddaşın pozulubsa, 1990-cı il hadisələrini görmüş insanlar hələ də yaşayır. İstifadə etdiniz, hakimiyyətə gəldiniz. Az qalmışdı ki, Azərbaycan kimi bir ölkəni darmadağın edəsiniz. Yaxşı ki, Heydər Əliyev hakimiyyətə gəldi, dağıtdığınızı nəinki bərpa etdi, Azərbaycanı bütün dünyaya tanıtdırdı. Heydər Əliyevin qurub yaratdığını davamçısı İlham Əliyev daha da çiçəkləndirir... Mən də bir Qarabağ döyüşçüsü kimi sizə xəbərdarlıq edirəm. Bizim adımızdan bir daha istifadə etsəniz, dünyanın hegemon dövlətləri iqtisadi və siyasi tənəzzülə uğradığı bir vaxtda Azərbaycanda stabilliyi qoruyub saxlayan ölkə başçısı, Ali Baş Komandanın sadiq əsgəri kimi məni və mənim kimi minlərlə döyüşçünü qarşında görəcəksən”.

Bir sözlə, Vətənini sevən gənclər Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və veteranları adından istifadə edərək antitəbliğat aparmağa cəhd edən Əli Kərimli elə peşman etdilər ki... Sosial şəbəkələrdən istifadə edən ictimaiyyət nümayəndələri bu dəfə də dövlətin yanında olduqlarını, cənab Prezident İlham Əliyevin siyasətini dəstəklədiklərini sübut etdilər. Sübut etdilər ki, cari ilin yanvar ayının 25-də imzalanmış “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında” Sərəncam da digər sərəncamlar və fərmanlar kimi Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsində həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu Sərəncam çoxsaylı ailələrə mənzil ehtiyaclarını qısa zaman kəsiyində ödəməklə onlara böyük sevinc bəxş edəcək, bununla da şəhid ailələrinin sosial müdafiəsi daha da yaxşılaşacaq.

Və hər kəs Vətəni yolunda şəhid və qazi olanların valideynləri qarşısında baş əyir, fəxr edirik. Fəxr edirik ki, şərəflə qorudunuz Vətəni! Şərəflə qorudunuz Vətənin qeyrətini, torpağı Vətən etdiniz, Vətəni bütöv etdiniz. Hər qarışı şəhid qanı ilə yoğrulan, şəhid qoxusu duyulan bu torpaq bizə ötürülən əmanətdir. Çünki bu torpaqlar şəhid qanı ilə yoğrulub - Qarabağ Azərbaycandır!

# Oleq Panfilov: “Azərbaycanın Qarabağı geri qaytarması Qafqazda separatizmin gələcəyini sarsıdır”




Qafqazda gedən proseslər, region ölkələrinin ictimai xadimlərinin də diqqət mərkəzindədir və onlar da baş verənləri diqqətlə izləyirlər. Çünki bu proseslər regionun gələcəyinə əhəmiyyətli dərəcədə təsir göstərəcək faktordır. Gürcü professor, yazıçı, publisist Oleq Panfilov “Caliber” analitik informasiya mərkəzinə müsahibəsində bu məsələlərdən danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Oleq Valentinoviç, Qarabağdakı 44 günlük müharibənin nəticələrini necə qiymətləndirirsiniz? Azərbaycanın qələbəsi şəxsən sizin üçün təbiidirmi?***

- Nikol Paşinyanın seçki kampaniyası zamanı bir neçə dəfə yazdım və dedim ki, onun qələbəsinin uğuru Qarabağ münaqişəsinin həllinin başlanğıcı olmalıdır. O və komandası özlərini müasir siyasətçi kimi göstərdikləri üçün, mən Paşinyanı uzun illər, hətta jurnalist kimi Ermənistanın o vaxtkı hökuməti ilə problem yaşadığı vaxtdan tanıyırdım. Paşinyan qalib gələndə tez -tez münaqişənin həllinin zəruriliyini yazmağa başladım, çünki güman edirdim ki, Azərbaycan güclü və zəngin bir dövlətə çevrilir və təbii ki, gec-tez Qarabağ problemini əsaslı şəkildə həll edəcək. Amma təsəvvür edə bilməzdim ki, Azərbaycan ordusu təkcə Qafqazda deyil, postsovet məkanında da müasir və güclü orduya çevriləcək.

Qəribədir ki, Türkiyənin Bakıya hərbi və siyasi yardım göstərməyə hazır olduğunu güman edə bilərdim, İrəvan isə nədənsə hələ də Moskvaya ümid edirdi. Kreml heç bir quru sərhədi olmayan Ermənistanın anklavını çətinliklə müdafiə edərdi. Bundan əlavə, Paşinyan Kremlə heç də simpatiya bəsləmir, o, Moskvada necə deyərlər, “Sorosçu”dur, yəni heç bir halda Rusiyanın müttəfiqi deyil.

***- Rəsmi Bakı son aylarda dəfələrlə Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olduğunu bəyan edib. Və bu düzgün istiqamətdir, çünki münaqişə bitdi, Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Ancaq İrəvanda nəinki dinc dialoqa hazırlıq nümayiş etdirmirlər, əksinə, “hərbi qisas”ın tərəfdarı olanların səsi getdikcə daha çox eşidilir. Ermənistan Silahlı Qüvvələrinin sərhəddə təxribatları da tez-tez baş verir. Sizcə, bu təxribatlar yeni müharibəyə səbəb ola bilərmi və Ermənistanın özünün buna gücü varmı?***

- İrəvan üçün nə qədər təhqiramiz səslənsə də, kiçik atışmalar heç nəyi dəyişə bilməz- KTMT müdaxilə etməyəcək, üstəlik, Azərbaycanın hərbi potensialı erməni potensialından qat-qat çoxdur. Bu səbəbdən qarşıdurmalar, həm də qisas və “Artsax”ın “bərpası” ilə bağlı siyasi bəyanatlar, sadəcə, daxili auditoriya üçün təbliğatdır. Kreml problemi özü üçün həll etdi- Azərbaycanı dəstəkləməklə Ermənistanı o qədər zəiflətdi ki, Ermənistan-Azərbaycan sərhədini qorumaq və mahiyyət etibarilə ərazidə möhkəmlənmək üçün əlavə resurslar yerləşdirmək də daxil olmaqla ona şərtlər diktə edə bilər. Rusiyanın qorxduğu şey öz iştirakı ilə baş verdi- NATO üzvü olan Türkiyənin Qafqazda əsas oyunçulardan olması, burada ABŞ və NATOnun varlığını artırır. Ermənistan heç bir real xarici siyasəti olmayan Rusiya anklavı olaraq qalır.

***- Müharibə zamanı Gürcüstan öz ərazisindən Ermənistana silah daşınmasına icazə vermədi. Tiflisin bu mövqeyi Ermənistanın BMT-də və digər beynəlxalq təşkilatlarda həmişə Gürcüstana qarşı səs verdiyinə cavab olaraq xarakterizə edilə bilərmi, yoxsa bitərəfliyi qorumaq üçün prinsipial mövqe idi?***

- Düşünürəm ki, Gürcüstanın mövqeyinə erməni siyasətinin bir çox amili təsir edir- həm Abxaziya, həm də Osetiya separatizminə qeyri-müəyyən münasibət, həm də Cavaxetiyadakı erməni siyasətçilərinin separatizmi. Gürcüstandakı əksər etnik ermənilərin əksəriyyəti “Böyük Ermənistan” ideologiyasına mənəvi dəstəkdir.

Digər tərəfdən, Ermənistan KTMT üzvüdür və Gürcüstanın ərazisini işğalda saxlayan Rusiyanın tərəfdaşıdır. “Gürcü Arzusu”nun xarici siyasəti nə qədər qeyri-müəyyən olsa da, Ermənistan ərazisindən Rusiya təhlükəsinin qarşısının alınmasında ABŞ və NATO qarşısında götürdüyü öhdəliklərdən yan keçə bilməz.

Nəhayət, Gürcüstan təkcə enerji layihələri ilə deyil, həm də kommunikasiyalar, dəmir yolu ilə əlaqəli olan Azərbaycanın ən yaxın iqtisadi tərəfdaşıdır. Qarabağ münaqişəsindəki neytral status, separatçı müharibədə əziyyət çəkən Gürcüstanın təbii münasibətidir.

***- 44 günlük müharibədə Azərbaycanın qələbəsi Gürcüstan üçün də nümunə ola bilərmi? Mən ərazi münaqişələrinin ədalətli həlli üçün presedenti nəzərdə tuturam. Üstəlik, Tbilisi ilə Türkiyə arasında kifayət qədər güclü siyasi və iqtisadi əlaqələr də var.***

- Bu, yalnız nəzəri baxımdan mümkündür, Abxaziya və Cənubi Osetiya ərazisində Rusiya Federasiyası FSB-nin sərhəd qoşunları da daxil olmaqla 30-dan çox Rusiya hərbi bazası və hərbi hissəsinin olduğunu unutmamalıyıq. Hərbi həll yolu ola bilməz, əks halda yenidən başqa qüvvələrin də iştirak edə biləcəyi müharibəyə çevrilə bilər. Bundan əlavə, Abxaz və Osetiya münaqişələrinin mahiyyəti Qarabağ münaqişəsindən fərqlidir; osetinlər və abxazlar mental və tarixi aspektdən daha çox Gürcüstanla bağlıdır, nəinki erməni və azərbaycanlı əhali birbiri ilə.

Çox güman ki, başqa bir ssenari gözləyir- Rusiyanın Abxaziyadan və Cənubi Osetiyadan heç bir dövlət olmayacağını başa düşməsi- bunun üçün nə iqtisadi, nə də siyasi potensial var.

Türkiyə ən azından Gürcüstan ərazisinin bütövlüyünü yorulmadan təkrarlamaqla Tiflisə dəstək verir. Gördüyünüz kimi, Türkiyədəki abxaz mühacirlər də Suxumi kuklalarına etibar etmirlər. Azərbaycanın Qarabağı geri qaytarması Qafqazda separatizmin gələcəyini ciddi şəkildə sarsıtdı. Ərazilərimizi geri qaytarmağımız daha çətin və daha uzun sürəcək, amma bu, şübhəsiz ki, baş verəcək.

***Tərcümə - Elçin Bayramlı***



Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# Seyran Ohanyanın haqlı etirafları

**...Amma deyim ki, Seyran Ohanyan bir şeydə haqlıdır. Yəni o, bu gün Ermənistanla sərhədlərini bərpa edən Azərbaycan Ordusunun vaxtilə ermənilərin “özlərinki bilib” zəbt etdikləri torpaqların gələcəkdə geri qaytara bilməyəcəkləri ilə bağlı dediklərində...həqiqətən haqlıdır. Çünki o, sabiq bir müdafiə naziri kimi, erməni ordusunun qeyrətinə, üzr istəyirəm gücünə elə əvvəldən də bələd olanlardan biridir.**

Bax, ermənilərə yer edən də budur. Ermənilərə görə, vaxtilə Ermənistan kimi “qüdrətli” bir dövlətin müdafiə naziri olan biri belə deyirsə, bəs onda digərləri necə düşünməlidirlər...

...Gəlin, əvvəldən başlayaq. Deməli, ötən gün ermənilərin yeni seçilmiş parlamenti ilk iclasını keçirib. İclasda söz alan ermənilərin keçmiş müdafiə naziri,.. indi isə təzə deputatı Seyran Ohanyan söz alaraq, Ermənistan sərhədində vəziyyətin təhlükəli olduğunu diqqətə çatdırıb. Vəziyyətin, doğrudan da, ciddi olduğunu deyən təzə deputat buna artıq susa bilmədiyini də etiraf edib. O, gələcəkdə, sərhəd demarkasiyasından sonra belə, azərbaycanlıları əvvəlki mövqelərinə qaytara biləcəklərinə inanmağını deməklə, elə bil vurub ermənilərin belini qırıb.



Ermənilər də qayıdıb deyiblər ki, bəs bu necə olur? Axı, dünənə qədər erməni ordusunun “yenilməzliyindən” danəçan Ohanyanın dedikləri yalanmış? Axı, bu necə olur? Məgər o, vaxtilə Qarabağda uduzacaqları təqdirdə özünü alnından vuracağına söz verdiyini unudub? Vaxtilə onun bir az fransızların almanlara qarşı hazırladıqları “Maginot line”dən, bir az haradansa çırpışdırıb “Ohanyan səddi” kimi erməni rəsmilərinə təqdim etdiyi “keçilməz səddi” Azərbaycan Ordusunun əsgərləri bir günün içində yerlə-yeksan etdilər. Belə ki, Ohanyanın bu “yenilməz səddi” azərbaycanlı əsgərlərinə dənizdəki adi “qum adadan” da adi təsir bağışladı. Daha bunlar artıq arxada qalıb.

...Bəs onda, ermənilərin Ohanyandan indiki istəkləri nədir? Belə görünür ki, onlar sabiq nazirdən, sadəcə olaraq, susmasını tələb edirlər... Çünki o da 2016 -cı ilin Aprel müharibəsindən sonra Serj Sarkisyan kimi yalan danışıb xalqı aldadanlar sırasındaydı. ...Minə qədər erməni əsgəri itirdiklərinə baxmayaraq, yalandan “azərbaycanlıları hər an məğlub edə biləcək “güclü bir erməni ordusuna” malik olduqlarını deyirdilər. Erməni xalqını aldatmaq üçün min dona girirdilər. Amma onların riyakarlığı, korrupsiyasının miqyası, 44 günlük müharibədəki məğlubiyyətdən sonra paradoksal olaraq hər bir erməniyə göründü.

...Ona görə ermənilər vaxtilə Ermənistanı talan edib onun sonunu yaxınlaşdıran Ohanyan, Sarkisyan, Koçaryan kimilərin susmasını tələb edirlər.

...Elə, ölkəni xilas etməyin, azərbaycanlıların indi dayandığı “erməni torpaqlarının” geri qaytarılmasının mümkünsüzlüyü ilə bağlı bəyanatlar da daxil olmaqla...

...Bir də ermənilərə yer eləyən bu fikirləri bir başqasının yox, vaxtilə “məğlubedilməz bir orduya malik olan” ölkənin keçmiş müdafiə nazirinin dilindən eşitməlidirlər.

***Ağasəf Babayev***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

QARABAĞ AZƏRBAYCANDIR!

5 avqust

## Əfsanəvi oyunçu "Fənərbaxça"ya transfer olub

**"Qalatasaray" əlilarabası basketbol komandasının əfsanəvi oyunçusu İsmayıl Ar "Fənərbaxça"ya transfer olub. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, 36 yaşlı idmançı 14 mövsümdür sarı-qırmızılı komandanın formasını geyinib.**




### Bu yaxınlarda vida edib

İsmayıl Ar bu yaxınlarda sosial media hesabında etdiyi paylaşımda "10 Türkiyə Super Liqası, 5 Çempionlar Liqası, 4 Qitələrarası Dünya Çempionatı, 8 illik kapitanlıq, 14 mövsüm ailəm olan "Qalatasaray"la vidalaşıram. İnanıram ki, yaxşı şeylər buraxdım və öyrəndim" sözləri yazıb.

*Ziya Hikmətoğlu*

## Rusiyada minik avtomobillərinin qiyməti artır



Bu ilin yanvar-iyun aylarında Rusiyada yeni minik avtomobillərin qiymətlərində təqribən 12,5 faiz artım olub. Qeyd edək ki, SİA bu barədə "Autostat" analitik agentliyinə istinad edir. Bildirək ki, bu qiymət artımı təkcə Rusiyadakı yerli avtomobillərə deyil, ölkəyə xaricdən gətirilən avtomobillərə də şamil edilməlidir. Belə ki, bu artım gətirilən xarici avtomobilin çəkisindən asılı olaraq, 14,4 faizlə 11,6 faiz arasındadır.

Xatırladaq ki, maşınların qiymət artımı ilə bağlı deyiklərimiz Rusiya üçün elə də bir yenilik kimi qəbul edilməməlidir. Məsələn, "Rus Avtomobil Satıcıları" Birliyi bu ilin əvvəlindən etibarən ölkədə avtomobillərin qiymətlərinin orta hesabla 7-10 faiz artdığını bildirir. Birlik əməkdaşının dediyinə görə, ilin əvvəlindən bəri qiymət artımı bəzi modellər və markalar üçün artıq 7-10 faiz və ya daha çox səviyyəyə çatıb.

Qeyd edək ki, iyulun sonunda "RIA Novosti"yə müsahibə verən dilerlər Rusiyada avtomobil qiymətlərinin 2021-ci ilin üçüncü rübündə orta hesabla 1-5 faiz də artacağını proqnozlaşdırırlar. Bəziləri isə bu artımın marka və modeldən asılı olaraq bir ilə üç arasında olacağını istisna etmirlər.

*Ağasəf Babayev*

**Bilmənız vacibdir**

## Əgər immun sistemi güclü olarsa...



"Hal-hazırda, xüsusilə də yay mövsümündə uşaqlar arasında qida allergiyalarına çox rast gəlinir. Qida allergiyalarının isə müxtəlif səbəbləri ola bilər. Allergiya bəzən immun sisteminin zəifliyindən olsa da, bəzən qidaların tarlalardan süfrəyə qədər hər hansı bir zəncirdən qırılmasından baş versə də, bəzən də gigiyena qaydalarına düzgün əməl olunmasa da, bir çox hallarda hər hansı bir qidanın tərkibində olan maddəyə qarşı yüksək həssaslıqdan baş verir. Bu hallarda qida allergiyalarının simptomları da fərqli ola bilər". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib. Onun sözlərinə görə, simptomlar bir çox hallarda dərinin qabarması, qızarması və şişkinliyi ilə olsa da, bəzən də qusma, ishal və eyni zamanda, qaşınmalar və bir çox hallarda təngnəfəslik kimi əlamətlər verə bilər: "Yaxşı olar ki, qida allergiyasının dəqiq səbəblərini bilib, onunla düzgün şəkildə mübarizə aparılsın. Qida allergiyasına səbəb olan qidalara, əsasən, yer fıstığı, küncüt, çərəzlər (qoz, fındıq, badam) və süd məhsullarını misal göstərə bilərik. Bu məhsullar yay mövsümündə istehlak olunduqda daha təhlükəli ola bilər. Eyni zamanda, mövsümündə olmayan meyvə-tərəvəzlərlə qidalandıqda uşaqlarda zəhərlənmə baş verir ki, həmin meyvə-tərəvəzlərin tərkibindəki azotlar, nitratlar, kimyəvi maddələr uşaqlarda həssaslıqla qarşılanır. Uşaqlar üçün nəzərdə tutulmuş bir çox qidalar var ki, buraya şokoladlar, cipsilər, suxariklər aiddir ki, bu məhsulların tərkibində allergiyaya səbəb olan maddələr varsa, çox təhlükəlidir. Yaxşı olar ki, hər hansı bir qidaya qarşı allergiyamız varsa, ondan uzaq olaraq imtina edək".

Məhsəti Hüseynova sözlərinə belə davam edib: "Eyni zamanda, sağlam qidalanaraq təbii şəkildə və yeni bişirilmiş məhsullardan istifadə etməliyik. Gün ərzində mütləq şəkildə sağlamlığımızı təmin etmək üçün hər orqanizmə görə miqdarı fərdi nəzərdə tutulan su qəbul etməliyik. Həmçinin, açıq havada olmalı, yuxu rejiminə diqqət etməli və immun sistemini gücləndirməliyik. Əgər immun sistemi güclü olarsa, allergiyaya reaksiya verməyəcəyik".

"Son olaraq da onu qeyd edim ki, xüsusilə körpə uşaqlarda qatı qidaya keçərkən hər hansı bir qidanı verməmişdən əvvəl az miqdarda test etmək lazımdır. Test etdikdən sonra isə körpəyə həmin qidanı istədiyiniz miqdarda verə bilərsiniz".

*Ayşən Vəli*

## Sosial şəbəkələrdə görüntüləri yayılan narkotik alverçisi saxlanılıb



Sosial şəbəkələrdə görüntüləri yayılan narkotik vasitələrin satışı ilə məşğul olan şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, son günlər sosial şəbəkələrdə binaların birinin blokunda narkotik vasitələrin satışını özündə əks etdirən və polis əməkdaşlarının guya bu şəxsin əməlinə göz yumması ilə bağlı bəzi şəxslər tərəfindən böhtan xarakterli məlumatlar yayılıb. Həmin görütülər tərəfimizdən araşdırılıb.

Məlum olub ki, qeyd edilən video paytaxtın Xətai rayonunda lentə alınıb. Xətai Rayon Polis İdarəsi və 37-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində və satışında şübhəli bilinən video görüntülərdəki şəxs paytaxt sakini Murad Əsədzadə saxlanılıb. Bu şəxsin üzərinə baxış zamanı 10 büküm satış üçün qablaşdırılan heroin aşkar edilib.

Qeyd edək ki, araşdırma zamanı M.Əsədzadənin narkotik vasitələri yaşadığı mənzilin giriş qapısında satmaq üçün gizlətdiyi və narkotik vasitəni ondan alan şəxsin də heroini oradan götürdüyü görünür. Faktla bağlı Xətai Rayon Polis İdarəsində Murad Əsədzadə barəsində cinayət işi başlanılıb və o, tutularaq istintaqa təqdim edilib. Murad Əsədzadənin narkotik vasitələri əldə etdiyi mənbənin tapılması istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.

**ELAN**

Məmmədova Gülnar Əli qızına məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600